QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 228 (5948) **10 dekabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Kadr və struktur islahatları bundan sonra da davam edəcək!

*Prezident İlham Əliyev: "Ümumi idarəetmə işlərində vəziyyət müasir standartlara cavab verməlidir"*




4

**Azərbaycan cəmiyyəti bütövlükdə İlham Əliyevin həyata keçirdiyi islahatlara ciddi inam ifadə edir**



5

**"Azərbaycanın müstəqilliyinə gedən yolun əsası Ulu Öndər tərəfindən qoyulub"**



13

**Sosial şəbəkə istifadəçiləri Əli Kərimlini ələ saldılar - Dubaya gedir?**



# “Bu fakt onu göstərir ki, ölkəmizdə həyata keçirilən islahatlar konkret nəticələr verir”

## *Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın İqtisadi İnkişaf nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri, Rusiya-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyasının həmsədri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev bildirib ki, həm Rusiyadan Azərbaycana, həm də Azərbaycandan Rusiyaya çoxmilyardlıq investisiyalar, ilk növbədə, bizim bir-birimizə etimadımızın, həmçinin Rusiyada da, Azərbaycanda da yaxşılaşmaqda olan əlverişli investisiya mühitinin göstəricisidir:***

-Hörmətli Maksim Stanislavoviç, hörmətli qonaqlar.

Azərbaycana xoş gəlmisiniz. Sizi yenidən görməyimə şadam. İl başa çatır. Artıq indidən demək olar ki, bu il bütün istiqamətlər üzrə ikitərəfli münasibətlərimizin inkişafı üçün çox uğurlu olub. Yüksək səviyyədə, prezidentlər arasında çox mühüm görüşlər olub. Beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşlərdən əlavə, prezidentlər arasında iki görüş olub. Sizin də iştirak etdiyiniz həmin görüşlərdə bütün istiqamətlər üzrə qarşılıqlı fəaliyyətimizin əsas, o cümlədən iqtisadi-ticari əlaqələrin inkişafı prinsipləri təsdiq edilib. Prezidentlər “yol xəritələri”nin implementasiyası üzrə işi fəallaşdırmaq barədə tapşırıq veriblər. Şadam ki, bu proses çox uğurla gedir.

Mehriban Əliyevanın Moskvaya səfəri çərçivəsində də “yol xəritələri” siyahısının genişləndirilməsi razılaşdırılıb ki, onlar yeni sahələri əhatə etsin. “Yol xəritələri”nin reallaşmasının yaxşı nəticələr verdiyini nəzərə alsaq, bu, çox vacibdir. Ona görə də bu siyahıya yeni istiqamətlərin əlavə edilməsi, əlbəttə ki, bizim əməkdaşlığımızın məntiqi davamıdır.

Biz ili yaxşı nəticələrlə başa vururuq, əmtəə dövriyyəsi artır. Bu, sevindirici haldır, çünki əmtəə dövriyyəsi ilbəil artır. Mövcud potensialın artırılması ilk baxışda çətindir, çünki baza artır. Bununla bərabər, biz fəal qarşılıqlı əlaqələrin nəticələrini görürük. Bu nəticələr həm əmtəə dövriyyəsinin, həm də investisiyaların artmasında əksini tapır. Bu məsələ yaxın vaxtlarda Mehriban Əliyevanın səfəri çərçivəsində də müzakirə edilib və vurğulanıb ki, həm Rusiyadan Azərbaycana, həm də Azərbaycandan Rusiyaya çoxmilyardlıq investisiyalar, ilk növbədə, bizim bir-birimizə etimadımızın, həmçinin Rusiyada da, Azərbaycanda da yaxşılaşmaqda olan əlverişli investisiya mühitinin göstəricisidir. Biz bunu Dünya Bankının “Doing Business” reytinqində də, Davos Forumunun rəqabətqabiliyyətlilik reytinqində də görürük. Bu reytinqlərdə həm Azərbaycan, həm də Rusiya öz mövqelərini yaxşılaşdırır. Bu, obyektiv reallıqdır. Bu fakt onu göstərir ki, ölkəmizdə həyata keçirilən islahatlar konkret nəticələr verir.

Mən onu da bilirəm ki, bu gün Azərbaycanda çox mühüm investisiya layihəsinin - əczaçılıq müəssisəsinin açılışı olacaq. Bu istiqamətdə Azərbaycan bazarının genişlənməsini, əhalinin və istehlakın da artmasını nəzərə alsaq, bu, çox sevindirici haldır. Əlbəttə ki, biz bazarı özümüzün istehsal etdiyimiz məhsullarla zənginləşdirməkdə maraqlıyıq. İndiki halda Rusiya şirkətinin Azərbaycanda istehsalı başqa istiqamətlərdə, maşınqayırma, energetika və nəqliyyatda olduğu kimi, bizim münasibətlərimizin yaxşı göstəricisidir. Samur çayı üzərindən körpünün tikintisi praktiki olaraq başa çatdırılıb. Bu da onun nəticəsidir ki, yüksək səviyyədə qəbul edilən bütün qərarlar yerinə yetirilir. Zənnimcə, bu, bizim münasibətlərimizin əsas nailiyyətlərindən biridir. Biz qarşıya konkret məsələlər qoyur, onları konkret həll edir və yaxşı nəticələr görürük.

Əlbəttə, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində “Azərbaycan” pavilyonunun ilkin görkəmdə bərpa olunmasını məmnuniyyətlə qeyd etməliyəm. Mən bu pavilyonun açılışına televizorla baxmışam, sonra isə bizim telekanallarda çoxlu reportajlar göstərilib. Bu, əlbəttə, bizim münasibətlərimiz üçün çox böyük əhəmiyyət kəsb edən olduqca əlamətdar hadisə və bizim ortaq tariximizə hörmət əlamətidir. Düşünürəm ki, bu pavilyon Azərbaycan mallarını Rusiya bazarlarında çox fəal təbliğ edəcək.

Başqa sözlə desək, bizim əməkdaşlığımızın bütün istiqamətləri üzrə müsbət nəticələr göz qabağındadır. Artıq yekun vurmaq olar. Əminəm ki, növbəti il də çox uğurlu olacaq, ona görə ki, münasibətlərimizi möhkəmlətmək üçün çox ciddi niyyətlərimiz var. Bu gün Hökumətlərarası Komissiyanın iclası da keçiriləcək. Əminəm ki, geniş spektrli məsələlər müzakirə olunacaq, reallaşdırılmaq üçün konkret tapşırıqlar veriləcək. Buna görə inanıram ki, səfəriniz çox səmərəli olacaq və Bakıda vaxtınızın xoş keçməsini arzu edirəm.

***

Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri, Rusiya-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyasının həmsədri Maksim Oreşkin Rusiya Prezidenti Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

***

Rusiyanın İqtisadi İnkişaf naziri Maksim Oreşkin:

-Çox sağ olun, hörmətli İlham Heydər oğlu. Görülən işə bu cür müsbət qiymət verdiyinizə görə sağ olun. Həqiqətən, cari rəqəmlərə nəzər salsaq, əmtəə dövriyyəsini və dinamikanı əks istiqamətdə müqayisə etsək, məsələn, bu il Avrasiya İqtisadi İttifaqı ilə bizim münasibətlərimizdə dinamika mənfidir, əmtəə dövriyyəsi bir qədər azalır. Buna görə, həqiqətən, Azərbaycanla təqribən 30 faiz artım var. Bu, ümumiyyətlə, hər hansı ölkə ilə müqayisədə həqiqətən ən yüksək göstəricilərdən biridir. Doğrudan da baza bəlkə də bu qədər yüksək olmayıb və Hökumətlərarası Komissiya çərçivəsində mənim həmkarlarımla birlikdə həyata keçirdiyimiz ilk tədbirlər, sədlərin aradan qaldırılması, bazarlar açılması - bütün bunlar ciddi irəliləyişə nail olmağa və bu cür yaxşı nəticələr göstərməyə imkan verib.

Lakin daha irəli getmək və elə etmək lazımdır ki, bunlar birdəfəlik nəticə deyil, daimi hadisə olsun. Buna görə biz burada, əlbəttə, əməkdaşlığın dərinləşdirilməsi üzərində işləyəcəyik. Çünki bunlar, sadəcə, sədlər deyil, bunlar müştərək layihələr məsələləri və əlavə dəyər zənciridir. Bu gün biz kənd təsərrüfatına dair proqram imzalayacağıq. Həmin proqram təkcə kənd təsərrüfatına deyil, onunla bağlı bütün məsələlərə aiddir. Ona görə də bu cür kompleks məsələlər və ya, deyək ki, tranzit məsələsi, Rusiya ilə Azərbaycanın birlikdə inkişaf etdirdiyi bir neçə tranzit yol buraya aiddir. Tranzit axınının artması üçün hər yerdə növbəti addımlar atılmalıdır. Biz burada daha çox, daha ciddi artım görürük. Burada müsbət rəqəmlər var. Buna görə biz bütün bunların üzərində işləyəcəyik.

Siz müştərək istehsal məsələsini xatırlatdınız. Siz düz dediniz ki, bu gün biz əczaçılıq zavodunu açacağıq. Keçən dəfə biz avtomobil zavodunun təməlini qoyduq. Bu gün helikopterlər üçün xidmət mərkəzinin təməlinin qoyulmasını planlaşdırırıq. Hər dəfə nə isə bir layihə, irəliyə doğru nə isə yeni bir hərəkət olur. Əlbəttə, biz burada Rusiya-Azərbaycan və Azərbaycan-Rusiya işgüzar şuralarının fəal işini görürük. Çünki layihələrin sayı artır və biz öz tərəfimizdən həmin layihələri dəstəkləmək üçün nə lazımdırsa edirik. İnnovasiya istiqaməti, Sizin xatırlatdığınız altıncı “yol xəritəsi” çox mühüm istiqamətdir. Siz bizim nümayəndə heyətinin tərkibinə nəzər salsanız, bu gün mənimlə üç nazir müavini gəlib. Çünki bu, reallaşan layihələrin sayını və hansı miqyasda layihələri həyata keçirməli olduğumuzu göstərir.

### Rəsmi xronika

Prezident İlham Əliyev Əlişir Musayevin 3-cü dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, sərəncamda deyilir ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Əlişir Veys oğlu Musayev 3 cü dərəcəli “Əmək” ordeni ilə təltif edilsin.

***

Prezident İlham Əliyev Ukraynanın Prezidenti Vladimir Zelenskiyə başsağlığı verib. Başsağlığında deyilir: “Hörmətli cənab Prezident, Odessa şəhərində kolledə baş vermiş yanğın nəticəsində insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi. Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Ukrayna xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram”.

***

Prezident İlham Əliyev “Azərbaycan Respublikası Dövlət Neft Fondu Müşahidə Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 iyun tarixli 255 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Bakı şəhəri Suraxanı rayonunun Yeni Suraxanı qəsəbəsinin daxili yollarının əsaslı təmiri ilə bağlı əlavə tədbirlər barədə Sərəncam imzalayıb.

# Kadr və struktur islahatları bundan sonra da davam edəcək!

## *Prezident İlham Əliyev: "Ümumi idarəetmə işlərində vəziyyət müasir standartlara cavab verməlidir"*

***Prezident İlham Əliyevin həyata keçirdiyi struktur və kadr islahatları öz səmərəsini verməkdədir. Belə ki, bir sıra sahələrdə yeniliklər, uğurlu nəticələr və xüsusilə, xalqın maraqlarına cavab verən reallıq faktoru özünü ən yüksək səviyyədə sübuta yetirməkdədir. Daha bir fakt budur ki, dövlətimizin başçısı çıxışlarının hər birində gerçəkləşdirilən islahatların ardıcıl şəkildə davam etdiriləcəyini vurğulamaqla, qarşıda növbəti uğurlu addımların atılacağı anonslarını verir. Məhz bu baxımdan, ölkə başçımızın Hacıqabul rayonuna və Naftalan şəhərinə təyin edildiyi yeni icra başçıları ilə görüşdəki fikirləri, irəli sürdüyü tələb və tövsiyələri növbəti mühüm məqamları ehtiva etməkdədir.***




Azərbaycan Prezidenti İlham Əliyevin struktur islahatları ilə bərabər, kadr islahatlarının da aparılması barədə qeyd etdiyi fikri, eyni zamanda, belə nəticəyə gəlməyə zəmin yaradır ki, reallaşdırılan məqsədyönlü siyasət həm Azərbaycan xalqının, həm də dövlətimizin daha güclü, qüdrətli və firavan olması istiqamətində istiqamətləndirilməkdədir. Xüsusilə, müxtəlif strukturlarda gəncləşdirilmə siyasəti yeni kadrların ölkəyə və xalqa xidmət keyfiyyətini maksimuma çatdıracaq. Belə ki, cəmiyyətin islahatları yüksək qiymətləndirdiyini vurğulayan ölkəmizin başçısı İlham Əliyev Prezident Administrasiyasının, Nazirlər Kabinetinin yeni strukturlarının təsdiq edildiyini, Milli Məclisin isə yenidən formalaşacağını buna misal olaraq gətirib. SİTAT: "Bütün bunların bir məqsədi var: ölkəmizin uğurlu inkişafını təmin etmək, ölkədə mövcud olan gözəl ab-havanı qoruyub-saxlamaq və gənc peşəkar kadrlara imkan vermək ki, onlar özlərini göstərsinlər. Ümumi idarəetmə işlərində vəziyyət müasir standartlara cavab verməlidir".

### "Ölkəmizin çox gözəl beynəlxalq imici vardır"

Daha bir mühüm nüans ondan ibarətdir ki, Azərbaycanda baş verən yeniliklərin hər biri dövlətimizin beynəlxalq aləmdə artan nüfuzunu daha da yüksəkdir. Belə nəticəyə gələ bilərik ki, struktur, kadr və s. islahatlarının həyata keçirilməsi hətta ən inkişaf edən dünya dövlətləri üçün də bir nümunəyə çevrilib. Ümumiyyətlə, paytaxt Bakının dünya siyasətçilərinin, ziyalılarının, mədəniyyət işçilərinin, biznes adamlarının, nüfuzlu hərbi və güc strukturlarının ortaq məxrəcə gəldiyi mərkəz kimi qəbul olunması və tanınması qeyd edilən fikirləri tamamlayır. Bu baxımdan da, Prezident İlham Əliyevin sözügedən görüşdə səsləndirdiyi fikirləri önəmli olaraq, qəbul edilməlidir. SİTAT: "Ölkəmizin uğurlu inkişafı danılmaz həqiqətdir. Bütün mötəbər beynəlxalq qurumlar bunu qeyd edir. Ölkəmizin çox gözəl beynəlxalq imici vardır. Təkcə oktyabr-noyabr aylarında ölkəmizdə baş vermiş hadisələr, keçirilmiş mötəbər tədbirlər, onu göstərir ki, Azərbaycanın beynəlxalq nüfuzu nə qədər yüksəkdir və nə qədər beynəlxalq dəstək göstərilir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşü yüksək səviyyədə keçirildi və Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərinə götürmüşdür. Qoşulmama Hərəkatının Zirvə Görüşü yüksək səviyyədə keçirildi və 120 ölkənin dəstəyi ilə biz bu təşkilata sədr seçilmişik və üç il ərzində sədrlik edəcəyik. Dünya Dini Liderlərinin Zirvə Görüşü Azərbaycanda keçirilib və 70 ölkədən gəlmiş nümayəndələrin hər biri qeyd edirdi ki, Azərbaycan bu sahədə dünyada aparıcı rol oynayır".

### "Keçirilmiş son rəy sorğusunun nəticələrinə görə, xalqımızın mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir və bəyənir"

Dövlət başçısı "Bizim apardığımız kadr və struktur islahatları, eyni zamanda, ölkəmizin beynəlxalq imicini daha da yüksəklərə qaldırır və vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir" ifadəsini də irəli sürməklə, bütün bunların yalnız və yalnız faktlara əsaslandırıldığını da xatırladıb. Belə ki, müxtəlif yerli və xarici sorğu mərkəzlərinin keçirdikləri rəy sorğuları da belə bir nəticə hasil edir, o cümlədən, kadr və s. islahatlarının davamlı şəkildə baş verəcəyini təsdiqləyir: "Keçirilmiş son rəy sorğusunun nəticələrinə görə, xalqımızın mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir və bəyənir. Kadr islahatları davam etdiriləcək. Son vaxtlar aparılan islahatlar artıq öz nəticəsini verməkdədir. Cəmiyyətdə bu islahatlarla bağlı çox müsbət rəy formalaşıb və gözləntilər də vardır. Ona görə təyin edilmiş bütün yeni kadrlar qarşısında konkret vəzifələr qoyulur və bu kadrlar o vəzifələri icra etməlidirlər. Dövlət məmurları vəzifəyə gəlir mənbəyi kimi baxmamalıdırlar. Dövlət məmurları xalqa xidmət etməlidirlər. Onların başlıca missiyası bundan ibarətdir və siz də belə işləməlisiniz".

Yeni vəzifələrə təyin olunan şəxslərin təcrübəyə və novatorçuluğa malik olmaları barədə də əhəmiyyətli fikirlərini irəli sürən Prezident İlham Əliyev, həmçinin, qeyd edib ki, bu sintez həm cəmiyyətdə mövcud olmalıdır, möhkəmlənməlidir, həm də iqtidar komandasında və bütün idarəetmə strukturlarında: "Təcrübəli kadrların bilikləri, hazırlığı, eyni zamanda, gənclərin novatorluğu, dinamizmi, yeniliklərə meyilliliyi - bu prinsiplərin vəhdəti uğurlu inkişafımızı bundan sonra da şərtləndirəcəkdir".

Ümumiyyətlə, Prezident İlham Əliyev bütün çıxış və nitqlərində vurğulayır ki, məmur vətəndaşa xidmət etməli, vətəndaşın müraciətlərinin həlli istiqamətində çalışmalı, həmçinin, vətəndaşı dövlətdən narazı salmamalıdır. Bu baxımdan da, ölkə rəhbərimiz sözügedən yeni təyinatında etibar etdiyi şəxslərə qarşı qətiyyətli tələblər qoyur, onların iş prinsiplərinin necə olacağı barədə tövsiyələrini irəli sürür: "Sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, rəhbərlik edəcəyiniz şəhər və rayonda iqtisadi inkişaf təmin edilsin, işsizliklə bağlı problemlər öz həllini tapsın. Siz vətəndaşlarla daim təmasda olmalısınız. Mövcud bütün olan problemləri, ilk növbədə, çox dərindən təhlil etməlisiniz və problemlərin həlli üçün iş planı tutulmalıdır. Təbii ki, problemlərin bir hissəsinin həlli mərkəzi icra orqanlarının səlahiyyətindədir. Belə olan halda, mərkəzi icra orqanları qarşısında məsələ qaldırmalısınız, eyni zamanda, Prezident Administrasiyasına məlumat verməlisiniz. O məsələlər ki, sizin fəaliyyətinizdən asılıdır, onları özünüz həll etməlisiniz və daim vətəndaşlardan onları narahat edən məsələləri eşitməlisiniz. Ona görə vətəndaşlarla sizin ünsiyyətiniz formal xarakter yox, işgüzar xarakter daşımalıdır və bu, sizin iş qrafikinizdə prioritet məsələ olmalıdır".

### "İcra başçıları həm yerli, həm də xarici biznes dairələri ilə sıx təmaslar qurmalıdırlar"

Prezident İlham Əliyevin toxunduğu daha bir əsas məqam işsizlik probleminin aradan qaldırılması və beynəlxalq qurumların sözügedən prosesdə Azərbaycanın uğurları ilə seçilməsi barədə irəli sürdükləri rəylərini təhlil etməsidir. Belə ki, əhalimizin sayı sürətlə artır və bu reallıq, istər-istəməz, qarşıya yeni vəzifələr qoyur ki, onlardan biri də iş yerlərinin açılması, bunun üçün investisiyaların cəlb edilməsi və s. bu kimi addımların atılması vacibliyidir. "İşsizliklə bağlı problemlər, bütövlükdə, Azərbaycanda öz həllini tapır və beynəlxalq qurumlar da bu sahədəki uğurlarımızı qeyd edir" deyə vurğulayan dövlət rəhbərimiz xatırladıb ki, bəzi qonşu ölkələrdən fərqli olaraq, bizim əhalimiz artır: "Azərbaycan Cənubi Qafqazda yeganə ölkədir ki, əhali artır və sovet dövründən sonra - müstəqillik illərində, təqribən 30 faizə yaxın artıbdır, 7 milyondan 10 milyona çatıbdır. Bütün bunlar, əlbəttə, tələb edir ki, yeni iş yerləri yaradılsın. İş yerlərinin yaradılması üçün investisiya layihələri icra edilməlidir. Ona görə icra başçıları da həm yerli, həm də xarici biznes dairələri ilə sıx təmaslar qurmalıdırlar, şəhər və rayonlara investisiyaları cəlb etməlidirlər ki, yerli istehsal artsın və işsizlik daim aşağı səviyyədə olsun".

Beləliklə, fakt budur ki, Azərbaycan Prezidenti İlham Əliyev bütün görüş və çıxışlarında, əsasən, xalqın və dövlətin maraqlarının ən yüksək səviyyədə təmin olunması, vətəndaşların problemlərinin aradan qaldırılması istiqamətində mühüm tezislərini irəli sürür və söz yox ki, bütün bunlar çox qısa zamanda, öz bəhrəsini verir və bundan sonra da xalqımız artan inkişaf və tərəqqi proseslərinin şahidi olacaq.

***Rövşən RƏSULOV***

# Azərbaycan cəmiyyəti bütövlükdə İlham Əliyevin həyata keçirdiyi islahatlara ciddi inam ifadə edir



**Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədovun növbədənkənar parlament seçkiləri ilə bağlı Trend-ə müsahibəsi:**

***- Əli müəllim, növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı qərar Azərbaycanın siyasi həyatına bir canlanma gətirdi. Bu seçkiləri zəruri edən səbəblər haqqında danışmağınızı istərdik.***

- Azərbaycanda son dövrlərdə Prezident İlham Əliyevin rəhbərliyi altında ciddi və genişmiqyaslı islahatlar strategiyası həyata keçirilməkdədir. Əslində, bu, Azərbaycanda bir neçə il əvvəl başlanılan iqtisadi islahatların davamı kimi də qiymətləndirilə bilər. Aparılan islahatlar nəticəsində Azərbaycanda bütün sferalarda ciddi dəyişikliklərin, ən başlıcası isə yeniləşmənin həyata keçirilməsi nəzərdə tutulur.

Doğrudur, uzun müddətdir həyata keçirilən Heydər Əliyev siyasəti nəticəsində yeni bir Azərbaycan formalaşıb, iqtisadiyyatı inkişaf edib və digər güclü dövlətçilik parametrləri müəyyənləşib. Eyni zamanda, Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, həyat daim inkişaf edir və bu inkişafın qarşıya qoyduğu vəzifələr də Azərbaycanın yenidən islahatlara getməsini, müasirləşməsini tələb edir. Buna müvafiq olaraq da artıq genişmiqyaslı, həyatımızın bir çox sahələrini əhatə edən islahatlara başlanılıb.

2019-cu il bu islahatların xüsusi bir mərhələsi kimi qeyd oluna bilər. Ona görə ki, bu ildə Prezident İlham Əliyevin həyata keçirdiyi islahatların dinamizmi daha da yüksəlib. Məlum olduğu kimi, artıq idarəetmə sahəsində də islahatlar aparılır. Hakimiyyətin üç qolundan ikisində islahatlar intensiv şəkildə həyata keçirilməkdədir. Mərkəzi və yerli icra hakimiyyətlərində, yəni icra hakimiyyəti qolunda həm struktur, həm də kadr islahatları aparılır. Məhkəmə hakimiyyəti sahəsində geniş islahatların həyata keçirilməsi müşahidə edilir. Beləliklə də bu islahatların dinamizminin artırılması, həm qarşıya qoyulan vəzifələrin uğurla həyata keçirilməsi, həm də bütün hakimiyyət qollarını əhatə etməklə islahatların ahəngdarlığının təmin edilməsi hakimiyyətin iki qolu ilə yanaşı, üçüncü - qanunverici hakimiyyət qolunda da islahatların aparılmasını zəruri edir.

Əgər qanunverici hakimiyyət sahəsində islahatların həyata keçirilməsinə başlanılmasa, digər sahələrdə aparılan islahatların qarşıda duran vəzifələrin Prezident İlham Əliyevin hədəflərinə uyğun həyata keçirilməsi bəlkə də müəyyən çətinliklərlə qarşılaşa bilərdi. Buna görə də sistemli şəkildə hakimiyyətin bütün sferalarını əhatə edən və nəticə etibarilə, çox möhtəşəm vəzifələrin reallaşmasına xidmət göstərən islahatların aparılması bu gün Azərbaycanda sosial sifarişə çevrilib.

Müşahidələrimiz bu fikri söyləməyə əsas verir ki, Azərbaycan cəmiyyəti bütövlükdə İlham Əliyevin həyata keçirdiyi islahatlara ciddi inam ifadə edir və bu islahatlardan böyük gözləntiləri var. Vətəndaşlar eyni zamanda islahatların tətbiqi sferasının genişlənməsini də arzu edirlər. Yeni Azərbaycan Partiyası cəmiyyətdəki bu ab-havanı duymağa başladı və bizə daxil olan siqnallar əsasında, bu sifarişə uyğun şəkildə Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının məlum qərarını qəbul etdik. İstənilən halda, islahatların aparılması Azərbaycanda inkişafın sürətlənməsinə xidmət edir.

***- Həmişə olduğu kimi, radikal müxalifət növbədənkənar parlament seçkilərinə də öz prizmasından yanaşır və bu seçkilərə qara yaxmağa çalışır. Sizcə, radikal müxalifət burada hansı məqsəd güdür?***

- Azərbaycanın müxalifəti də rəngarəngdir və qarşıda gözlədiyimiz parlament seçkilərinə müxalifətin münasibətində də fərqli məqamlar var. Apardığımız müşahidələr və təhlillər nəticəsində deyə bilərəm ki, müxalifətdə təmsil olunan partiyaların əhəmiyyətli bir hissəsi parlament seçkilərində iştirak etmək ideyasını prinsipcə qəbul edir və yəqin ki, onlar iştirak etmək niyyətlərini də reallaşdırmağa çalışacaqlar.

Amma Azərbaycanda müxalifət içərisində bir radikal qanad var ki, onlar bütövlükdə ölkədə istənilən pozitiv hərəkətlərə, inkişafa və dəyişikliklərə fərqli bir prizmadan yanaşmağa meyl göstərirlər və buna adət ediblər. Bu fərqli yanaşmanın da mahiyyəti Azərbaycanın reallıqlarını təhrif etmək, böhtan atmaq, yalanlar uydurmaq, şayiələr yaymaq və beləliklə də Azərbaycanın dövlətçilik maraqlarına qarşı bir mövqe ortaya qoymaqdan ibarətdir.

Dəfələrlə biz radikalizmin Azərbaycanın siyasi məfkurəsində özünə yer tutmadığını və bizim üçün yad bir yanaşma olduğunu qeyd etmişik. Bütövlükdə, Azərbaycan cəmiyyətində radikalizmə yer yoxdur. Belə olan halda, mövcud olan siyasi partiyalardan bir neçəsinin radikal mövqedə dayanması insanı düşünməyə vadar edir. Radikalizm bu partiyalara kimlər tərəfindən təbliğ edilib? Və radikal mövqedə dayanmaqla həmin partiyalar Azərbaycandan kənarda olan hansı maraqlı dairələrin istəklərini və niyyətlərini ifadə edirlər? Hesab edirəm ki, bunun üzərində düşünülməlidir və təhlillər aparılmalıdır.

Həmin o radikal müxalifət parlament seçkiləri ilə əlaqədar irəliyə sürülmüş təşəbbüsə də özünün adətinə uyğun şəkildə, qarayaxma taktikası əsasında münasibət bildirməyə çalışır. Onlar bəzi hallarda çox gülməli və bəsit təfəkkürü ifadə edən arqumentlər gətirirlər ki, guya Azərbaycanda növbəti parlament seçkilərinin keçirilməsi təşəbbüsünün əsas səbəbi seçkilərin soyuq ayda baş tutması ilə əlaqədardır. Guya müxalifət soyuq aylarda seçkilərdən kənarda qalacaq. Bu fikri belə təfəkkürün daşıyıcısı olan Əli Kərimli səsləndirib. Bu insanın dünyagörüşü haqqında istər-istəməz düşünməli olursan və təbii ki, təəccüb edirsən ki, bu cür bəsit təfəkkürə malik olan bir insan özünü müxalifət lideri kimi təqdim etməyə çalışır.

Əslində, seçkilərlə bağlı özlərinə uyğun şəkildə ifadə etdikləri absurd fikirlərin kökündə duran real səbəb isə onların seçkilərə hazır olmamaları və sosial dayaqlarını tamamilə itirmələri ilə əlaqədardır. Seçkidə iştirak etməyin ən başlıca səbəbi siyasi partiyanın yetərincə sosial dayağa və ictimai nüfuza malik olması ilə əlaqədardır. Bu parametrlərə malik olmayan partiyaların seçkilərdə iştirak edərək hər hansı uğur qazanması qeyri-mümkündür.

Radikal partiyalar Azərbaycan cəmiyyətində sosial dayaqlarını tamamilə itirdikləri üçün Azərbaycan vətəndaşlarının onların irəli sürəcəyi namizədlərə inamları yoxdur və beləliklə də seçkilərdə iştirak etmək radikal müxalifətə hər hansı bir uğur gətirmir. Belə olan halda onların taktikası ona əsaslanır ki, seçkilərdə özlərinin mütləq uğursuzluqlarını ört-basdır etmək üçün müxtəlif bəhanələrlə seçkilərdə iştirak etməkdən imtina etsinlər. Burada söhbət sadəcə olaraq həmin partiyaların seçkilərdə iştirak etmək üçün lazım olan insani, ictimai dəstək resurslarının çatışmaması ilə əlaqədardır. Bu resursları olmadığından onlar seçkilərdə iştirak edə bilmirlər, ancaq bunu müxtəlif bəhanələrlə əsaslandırmağa çalışırlar və beləliklə, yenə də adətlərinə uyğun olaraq Azərbaycan iqtidarının üzərinə qarayaxma kampaniyası ilə gəlməyə cəhdlər göstərirlər.

Boykot taktikasına gəldikdə isə əslində, bu, o zaman sözün həqiqi mənasında boykot taktikası adlandırıla bilər ki, belə çağırışlara insanlar səs versinlər və onu dəstəkləsinlər. Azərbaycanda radikal müxalifətin arxasında ictimai dayaq olmadığı üçün onların seçkiləri boykot etmək haqqında çağırışlarının ictimai əhval-ruhiyyəyə və seçicilərə hər hansı bir təsiri olmayacaq. Ona görə də onların boykot çağırışlarının qarşıdan gələn parlament seçkilərinə hər hansı bir təsir gücü yoxdur.

Əslində isə bu, onların özünün boykotu kimi qavranılmalıdır, Azərbaycan cəmiyyəti tərəfindən radikallığın boykotu kimi dəyərləndirilməlidir. Həqiqi mənada, Azərbaycan cəmiyyəti tərəfindən radikallığın ciddi bir boykotu var. Əgər siyasi partiya ölkədə keçirilən istənilən seçkilərdə iştirak etmirsə, həmin partiyanın bütövlükdə mövcud olmasının mənası və əhəmiyyəti qalmır.

***- Radikal müxalifət, həmçinin, növbədənkənar seçkilərin Konstitusiyaya uyğun olmaması ilə bağlı iddialar səsləndirir***

- Müxalifətin və əsasən də radikal müxalifətin guya parlamentin vaxtından əvvəl buraxılmasının Konstitusiyaya uyğun olmaması haqqında fikirlərinin də heç bir məntiqi və hüquqi əsası yoxdur. Birincisi, 2016-cı ildə Azərbaycan Respublikasında keçirilən referenduma görə, Azərbaycanın Prezidentinə müəyyən şərtlər daxilində parlamenti buraxmaq səlahiyyəti verilib. Bu, Konstitusiyanın 98.1-ci maddəsində özünün ifadəsini tapıb.

Orada aydın şəkildə göstərilir ki, Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə bu Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddənin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır.

İndiki halda, Azərbaycan parlamenti deputatlarının mütləq əksəriyyəti Prezidentə müraciət edərək faktiki olaraq öz vəzifəsinə xitam verib. Beləliklə də Azərbaycanın parlamenti, qanunverici orqanı, Milli Məclisi Azərbaycan Konstitusiyasında müəyyən olunmuş, özünün həyata keçirməli olduğu vəzifələri aradan qaldırılması mümkün olmayan səbəblər üzündən həyata keçirə bilmir. Çünki kvorum yoxdur, parlamentin deputatları öz fəaliyyətlərinə xitam verməyi xahiş ediblər. Əslində, belə olduğu halda parlament Konstitusiyanın ona verdiyi vəzifələri yerinə yetirməsi üçün dediyim kimi, aradan qaldırılması mümkün olmayan səbəblər üzündən həmin vəzifələri yerinə yetirə bilmir.

Ona görə də parlamentin vaxtından əvvəl buraxılması Azərbaycan Respublikasının Konstitusiyasının tələblərinə uyğundur və bununla əlaqədar Konstitusiya Məhkəməsinin çıxardığı qərar da bu hüququn Konstitusiya maddələrinə kifayət qədər istinad edildiyini göstərir.

***- Əli müəllim, Yeni Azərbaycan Partiyası namizədlərini müəyyənləşdirən zaman hansı amillərə diqqət yetirəcək?***

- Hər bir seçki kampaniyasının öz xüsusiyyətləri var və indiki dövrün səciyyəsindən çıxış etməli olsaq, burada həyata keçirilən islahatlar strategiyası və onun ümumi konteksti mütləq şəkildə nəzərə alınmalıdır. Bu gün aparılan islahatlar həm də kadr dəyişiklikləri formasında özünü göstərir. Belə olan halda, müəyyən dərəcədə parlamentdə də bir dəyişikliyin həyata keçirilməsi ilə bağlı cəmiyyətdə sanki gözlənti var. Amma, eyni zamanda onu da qeyd etmək lazımdır ki, Azərbaycanda parlamentin formalaşması səlahiyyəti birmənalı şəkildə Azərbaycan vətəndaşlarına məxsusdur. Seçicilər kimlərin parlamentdə təmsil olunmasını istəsələr, onlara da səs verəcəklər və onlar da parlamentdə Azərbaycan xalqını təmsil edəcək. Seçilənlər gənc və ya orta yaşlı nəslin nümayəndəsi olacaq, bunu seçicilərin müstəsna səlahiyyəti müəyyənləşdirəcək.

Azərbaycan cəmiyyətində yeni, ləyaqətli, yüksək təhsilli, geniş dünyagörüşə malik və dərin vətənpərvərlik ruhunda tərbiyə almış gənc nəsil formalaşıb. Bu gənc nəsil Azərbaycanın inkişafına öz töhfəsini verə bilər. Biz onların imkanlarından, potensialından istifadə etməliyik. Taktikamız ondan ibarətdir ki, imkan dərəcəsində gənc insanların namizədliyini irəli sürək. Yerdə qalan məsələni isə seçicilər müəyyən edəcəklər.

# "Azərbaycanın müstəqilliyinə gedən yolun əsası Ulu Öndər tərəfindən qoyulub"

*Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimovun SİA-ya müsahibəsi*

***- Məlum olduğu kimi, Ulu Öndər Heydər Əliyevin haqq dünyasına qovuşmasından 16 il ötür. Biz bilirik ki, siz Dahi şəxsiyyətin yaxın silahdaşlarından biri olmusunuz. Cismən bizdən ayrılsa da, ruhən hər zaman bizimlə olan Ümummilli Liderin Azərbaycan dövləti üçün gördüyü işlər haqqında fikirləriniz.***

- Tarixi şəxsiyyət haqqında danışmaq həm çətin, həm də məsuliyyətlidir. Hələ 1969-1982-ci illərdə Heydər Əliyev Azərbaycanın birinci katibi seçildikdən sonra, ölkəmiz ən geridə qalan respublikalardan biri idi. O qısa müddət, yəni 14 il ərzində görülən işlər nəticəsində Azərbaycan ən qabaqcıl respublikalardan birinə çevrildi. Ölkəmiz bütün xüsusilə də kənd təsərrüfatı, sənaye sahəsində böyük dönüş etdi. Heydər Əliyev uzaqgörən və müdrik insan idi. Təbii ki, Təhlükəsizlik Komitəsinin sədri işləyən zaman da Azərbaycanda gedən bütün prosesləri bilirdi. 1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyevin Plenumda çıxışı hər kəsin yadındadır. Dönə-dönə vurğulayıram ki, Heydər Əliyev tarixi şəxsiyyət idi. Çünki, tarixi məhz şəxsiyyətlər yaradır. Ulu Öndər də Azərbaycanda bir tarix yardıb. Ümummilli Lider 1969-cu ildə hakimiyyətə gəldikdən sonra Sovet büdcəsi hesabına Bakıda neftayırma zavodlarını yenidən qurdurdu. Düzdür, o vaxt biz mərkəzi hakimiyyətə neft verirdik, amma Heydər Əliyev verdiyimiz neftdən qat-qat artıq SSRİ-nin büdcəsindən Azərbaycanda quruculuq, abadlıq işləri həyata keçirdi. Nə qədər binalar tikildi, böyük birliklər yaratdı. Təbii ki, bu da neft istehsalı və satışında böyük xidmətləri olub.



***- Aqrar sahə haqqında geniş biliyə sahib olan biri kimi Ulu Öndərin kənd təsərrüfatının inkişafı sitiqamətində xidmətlərindən də bəhs edərdiniz***

- Uzun illər bu sahədə çalışan biri kimi deyə bilərəm ki, Azərbaycanda o dövrdə kənddə yaşayan insanlar kasıb idi. Mən də həmin dövrdə kənddə yaşayırdım. Hər kəs ağır şəraitdə, palçıqlı küçələr də yaşayırdı. Ulu Öndər 1950-60-cı illərdə palçıqlı şəraitdə insanları həmin vəziyyətdən çıxardaraq, onların ikimərtəbəli evlərdə məskunlaşmasına imkan yaratdı. O vaxtın qabaqcıl respublikası kimi Azərbaycanda ordenlərin, zəhməti hesabına avtomobil alanların sayı-hesabı yox idi. Təbii ki, bütün bunlar pambıq, üzümçülük istehsalından əldə olunan gəlirlər hesabına əldə edilmişdi. Çünki bu sahələrdən əldə olunan gəlirlərin hər biri kənd təsərrüfatına, kəndçiyə gəlirdi. Məhz bunun nəticəsində kənddə yaşayanların sosial rifah halı daha da yaxşılaşdı, hətta maşınları da oldu. Azərbaycandan olan Sosialist Əməyi Qəhrəmanlarının sayı digər respublikalardan çox idi. Hətta bununla bağlı Ukraynanın birinci katibi Heydər Əliyevdən soruşur ki, necə olur ki, biz Azərbaycanda böyük ölkəyik amma ölkənizdə Sosialist Əməyi Qəhrəmanlarının sayı bizdən çoxdur. Ulu Öndər cavab vermişdir: "İndi neyləyim ki, mənim xalqım istedadlıdır". Bu, böyük göstərici idi. Bu ölkəmizin böyük inkişaf yolunda olduğunu sübut edirdi. Heydər Əliyev görün nə qədər uzaqgörən insan idi ki, o, 1978-ci ildə Azərbaycan Konstitusiyasında dəyişiklik ediləndə dilimiz Azərbaycan dili olaraq təsdiq edildi. O zaman bildiyiniz kimi, bütün respublikalarda dövlət dili rus dili idi və heç kim bunu dəyişməyə cürət etmirdi. Azərbaycanın müstəqilliyinə gedən yolun əsası Ulu Öndər tərəfindən qoyulub.

***- Ulu Öndər Naxçıvanı işğaldan necə qorudu?***

- 1987-1990-cı illərdə SSRİ-də ən ağır sahələr Heydər Əliyevə tapşırılmışdı, Ulu Öndər həmin vəzifələrin öhdəsindən də yüksək səviyyədə gəlib. Lakin mənfur Qorbaçov hakimiyyətə gəldikdən sonra yenidənqurma ilə əlaqədar Heydər Əliyev istəməyən, paxıl insanlar insanlar onu vəzifədən uzaqlaşdırdılar. Ulu Öndər həmin dövrdə də Azərbaycanı unutmur, ölkəmizə kömək edirdi. Daha sonra hər kəsin də bildiyi kimi, Heydər Əliyev 1990-cı ildə Azərbaycan gəldi. Lakin həmin dövrdə rəhbərlik Onun Bakıda yaşamasına imkan vermədi və O, doğulduğu Naxçıvana döndü. Naxçıvanda Ulu Öndər sözün həqiqi mənasında 1 il müddətində bütün sağlamlığını bərpa etdi. Heydər Əliyev Naxçıvanı erməni işğalından qorudu. Ermənilərin özləri də Heydər Əliyevdən çəkinirdilər. O dövrdə Bakıda vəziyyət o qədər də yaxşı deyildi. AXC adlı hərəkat hakimiyyətdə idi, kommunist partiyası iflic olmuşdu. Onlar arasında konflikt ölkəni dağıdırdı. Həmin dövrdə Naxçıvanda da vəziyyət ağır idi. 1991-ci ildə avqustun 19-da dövlət çevrilişi zamanı Kommunist Partiyası fəaliyyətini dayandırdı və həmin zaman Naxçıvanda hakimiyyətsizlik idi. Həmin dövrdə mən də Azərbaycanın deputatı idim. 1990-cı ildə Ulu Öndər Naxçıvana gələndə hər ikimizə deputat seçilmək qisməti oldu. Həmin dövrdə Naxçıvanın dayanıqlığını təmin edən, işğala qarşı çıxan yeganə şəxsiyyət Heydər Əliyev idi. Mən çıxışda qeyd etdim ki, Ulu Öndərə alternativ yoxdur. Əgər Heydər Əliyev Ali Məclisin Sədri seçilməsə, yəqin ki, biz erməni işğalından canımızı qurtara bilməyəcəyik. Coğrafiyanı bilənlər yaxşı bilir ki, ermənilər Sədərəkdən girib Ordubaddan çıxmaqla Naxçıvanı işğal edə bilərdilər. Heydər Əliyevin zəkası, ağlı ermənilərin yerində oturtdu və işğala imkan verilmədi. Heydər Əliyevin Ali Məclisə Sədr seçilən kimi orada müdafiə komitəsi yaradaraq, daha sonra islahatlara başladı. Heydər Əliyev 350 minlik Naxçıvan əhalisini yardım hesabına saxladı. Ağır vəziyyət olmasına baxmayaraq, Heydər Əliyev iqtisadi islahatlar apardı, Naxçıvanı qoruyub-saxlayaraq yüksək səviyyəyə qaydırdı.

***- Naxçıvanı işğaldan qurtaran Ulu Öndər, həm də Azərbaycanı dağılmaqdan, parçalanmaqdan xilas etdi. BDU-nun 100 illik yubiley tədbirində Prezident İlham Əliyev də qeyd etdi ki, 1990-cı illərin əvvəllərində AXC-Müsavat hakimiyyəti Heydər Əliyevin Bakıya gəlməsi üçün 3 dəfə təyyarə göndərdi.***

- 1993-cü ilin iyun ayında Gəncə hadisələri zamanı qan tökülərkən Azərbaycan əhalisi ayağa qalxdı, Ulu Öndəri hakimiyyətə dəvət etdi. Burada Yeni Azərbaycan Partiyasının xüsusi xdmətlərini də qeyd etmək lazımdır. Baxmayaraq ki, Heydər Əliyev bir o qədər də partiya yaratmaq istəmirdi, amma xahişlə 1992-ci ildə belə bir partiya yaradıldı. 16 oktyabrda "Səs" qəzetində 91 ziyalı tərəfindən Heydər Əliyevə edilən müraciətdən sonra 1992-ci ilin 24 oktyabrında Ulu Öndər Heydər Əliyev "Səs" qəzetində onlara cavab verdi. Həmin gün AXC rəhbərləri Naxçıvanda dövlət çevrilişi etdilər. Bu cür ağır vəziyyətdə Heydər Əliyev Naxçıvanı qorudu. Lakin iyun hadisələrindən sonra insanlar Ulu Öndərin ətrafında birləşdilər və AXC-dən qorxmayaraq Heydər Əliyevin tərəfindən çıxış edirdilər. 5 iyun tarixində Ulu Öndərin arxası ilə təyyarə gəlmişdi. Lakin O, getmək istəmirdi. Mən ayın 7-də Bakıya gələrək burada insanların həqiqətən də Heydər Əliyevi gözlədiklərinin şahidi oldum. Onların ümidi, nicatı Ulu Öndərə idi. Heydər Əliyev ayın 9-da Bakıya gəldi və bildiyiniz kimi, ayın 13-də Ali Sovetdə keçirilən iclasda çıxış edərək Gəncəyə getdi. Ayın 15-də isə Heydər Əliyev Ali Sovetin Sədri seçildi. Elə həmin gün Azərbaycanın və xalqımızın sözün əsil mənasında qurtuluşu oldu.

***Nailə Məhərrəmova***

# Nizami Kino Mərkəzində "Mələk" tammetrajlı bədii filmi nümayişi olunub

***Dekabrın 9-da Nizami Kino Mərkəzində "Mələk" tammetrajlı bədii filmi nümayiş olunub. AZƏRTAC xəbər verir ki, film Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Mədəniyyət Nazirliyi və YAP Gənclər Birliyinin dəstəyi ilə gənc prodüser Kənan Fərzəliyevin işçi qrupu ilə birgə ərsəyə gəlib.***








Filmin təqdimat mərasimində çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin informasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov deyib ki, hər bir çəkilən film inkişafdır, mədəniyyətdir və Azərbaycan mədəniyyətinə yeni töhfədir.

Qeyd edilib ki, filmin nümayişi Birləşmiş Millətlər Təşkilatının ölkəmizdəki nümayəndəliyi və Azərbaycanın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ənənəvi "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyası çərçivəsində keçirilir.

Natiq gənclər tərəfindən ekranlaşdırılan belə layihələri yüksək qiymətləndirib və bu işə hər zaman dəstək verməyə hazır olduqlarını bildirib. Tədbirdə Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev və YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev ekran əsərinin yaradıcı heyətinə uğurlar arzulayaraq bu işdə əməyi olanlara təşəkkür ediblər.

Vurğulanıb ki, zorakılıq, xüsusən də qadınlara qarşı zorakılıq halları müasir dövrün qlobal problemlərindən biri olaraq qalır. Bu hal bütün dünya ölkələrində müşahidə olunur. Qeyd edilib ki, ölkəmiz öz müstəqilliyini bərpa etdikdən sonra gender bərabərliyi və qadın hüquqlarına dair beynəlxalq normalar əsas götürülərək bu istiqamətdə bir çox layihələr icra olunub. Filmin prodüseri Kənan Aydın və quruluşçu rejissoru Elmar Məmmədov bütün iştirakçıları salamlayaraq onlara dəstək verən qurumlara minnətdarlıqlarını bildiriblər. Ssenari müəllifi Aysel Ateş Abdullazadə olan filmdə Xalq artisti Kazım Abdullayev, aktyorlar Xatirə Süleymanova, Kənan Aydın və Leyla Səlim çəkiliblər. Sonra film nümayiş olunub. Film "O evdən kəfənsiz çıx!" şüarı ilə erkən nikahlara, qadına şiddətə və ailədaxili zorakılığa qarşı dayanışmanı əks etdirir.

## Serbiya qəzetində ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən məqalə dərc olunub

Serbiyanın "Danas" qəzetində ulu öndər Heydər Əliyevin vəfatından ötən 16-cı ilə həsr olunmuş məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, "Heydər Əliyevin vəfatından 16 il keçir" başlıqlı məqalədə Ulu Öndərin həyat və fəaliyyətindən, Azərbaycan xalqının rifahı naminə gördüyü işlərdən, uzaqgörən siyasətindən bəhs olunub.


Danas
KLUB ČITALACA
UČLANI SE
NOVO Politika Dijalog Društvo Ekonomija Svet Sport Kultura Scena Život Auto IT Ljudi Beograd Čitaoci BBC Dodatak Nedelja
Svet
Šesnaest godina od smrti Hejdara Alijeva
Pre 16 godina – 12. decembra 2003. godine preminuo je nacionalni lider azerbejdžanskog naroda, Hejdar Alijev. Njegov životni put je put razvoja Azerbejdžana.
Piše: Milica Pavlović | 05. decembra 2019. 12:51 Izmenjeno: 12:58
Foto: EPA PHOTO AZERTAG/OKTAI MAMEDOV
U istoriji postoje ličnosti čiji život i aktivnost određuju sudbinu celog naroda. Takav je bio Hejdar Alijev.
Prošlo je već oko pedeset godina od kako je Hejdar Alijev zauvek osvojio srca Azerbejdžanaca. Hejdar Alijev je bio sjajan čovek, istorijska ličnost, takvi ljudi se pojavljuju, možda jednom u stoleću, i dolaze u najtežim vremenima, baš kada su najpotrebniji. Narod ne zaboravlja svoje vođe i heroje, čiji je život bio posvećen značajnom služenju svojoj domovini, zemlji, narodu.
INICIJATIVE GRAĐANA
današnje kolumne
Nema kolumni za danas.
Mesto za Vašu reklamu
990 RSD #KupiDanas
Sa nama počinje Danas

Bildirilib ki, Heydər Əliyev hakimiyyətdə olduğu müddətdə xalqın dirçəlişi və xoşbəxt gələcəyi üçün fədakarlıq nümayiş etdirib. Bu müddətdə güclü dövlətin, milli dirçəlişin, sosial rifahın və Azərbaycanın mənəvi inkişafının əsası qoyulub, ölkənin ən parlaq və məzmunlu səhifələri yazılıb. Şəhər, kənd və qəsəbələr yenidən qurulub, sakinlərin maddi vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşıb, elm, təhsil və mədəniyyət, eləcə də bütün sahələrdə dəyişikliklər baş verib. Qısa zaman ərzində ölkə əsrə bərabər inkişaf yolu keçib. Onun tərəfindən əsası qoyulmuş layihələr ölkənin iqtisadi və sosial inkişafı üçün əhəmiyyət kəsb edib. Yazıda Ulu Öndərin siyasi varisi Prezident İlham Əliyev tərəfindən Azərbaycanın davamlı inkişafı istiqamətində atılan addımlardan bəhs edilir. Qeyd olunur ki, bu gün Bakı mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üçün geniş meydana çevrilib. Qısa müddət ərzində Azərbaycan özünü etibarlı beynəlxalq tərəfdaş kimi göstərərək beynəlxalq ictimaiyyətin nüfuzlu üzvü olub.

# Heydər Əliyev - Azərbaycan xalqının əbədiyaşarlıq simvolu

*Artıq bu günün reallıqları sübut edir ki, Ulu Öndərin siyasi kursuna uyğun aparılan islahatlar müsbət nəticələr verir, bəhərini qədirbilən xalqımız daim yüksək qiymətləndirir*

***Bu gün hər bir vətənsevər azərbaycanlı, yaxşı bilir və dərk edir ki, Azərbaycanın milli-dövlətçilik ənənələrinin qurulmasında və inkişafında misilsiz xidmətləri olan Dahi Öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti ən yeni tariximizdə müstəsna yer tutur. Yüksək insani keyfiyyətlərinə, mükəmməl dövləti idarəetmə bacarığına, xalqa xidmət mədəniyyətinə görə, Heydər Əliyev dünyada nadir tarixi şəxsiyyətlər sırasındadır. Bu gün müstəqil Azərbaycan dövlətinin yaşaması, qüdrətli ölkə kimi təşəkkülü üçün Ümummilli Lider Heydər Əliyevə minnətdarıq.***



Daha bir mühüm amili də, qeyd etmək yerinə düşərdi ki, hər bir vətəndaşımızın qəlbində əbədiyaşarlıq zirvəsini fəth etmiş Heydər Əliyev, əmanət olaraq, xalqımıza zəngin maddi və mənəvi dəyərlər, alternativsiz dövlətçilik konsepsiyası, siyasi və iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində olan güclü və qüdrətli Azərbaycanı qoydu. Məhz Ulu Öndər Heydər Əliyevin fədakar əməyinin, səmərəli işgüzarlığının, uzaqgörən rəhbərlik və təşkilatçılıq istedadının sayəsində Azərbaycan SSRİ dövründə sürətlə və hərtərəfli inkişaf edərək, keçmiş İttifaqın öncül respublikalarından birinə çevrilmişdir. 1969-1982-ci illərdə ölkə iqtisadiyyatının bütün sahələrində istehsalın sürətlə artması nəticəsində iqtisadi və sosial inkişafın ümumiləşdirici göstəricisi olan milli gəlir 2,5 dəfə artdı. Respublikamızda bütün sahələrin - sənayenin, elmin, təhsilin, səhiyyənin sıçrayışlı inkişafı, elm tutumlu istehsal sahələrinin yaradılması, məhz Heydər Əliyevin səyləri və məqsədyönlü fəaliyyəti ilə təmin olunmuş, intellektual, elmi-texniki və iqtisadi potensialı ciddi dərəcədə yüksəlmişdi. 60-cı illərə qədər sənaye malları asılılığı



**Muxtar NAĞIYEV,**
**YAP Səbail rayon təşkilatının sədr müavini**

ilə üzləşən Azərbaycan, artıq 70-ci illərdə dünyanın 65 ölkəsinə 350 adda müxtəlif növ məhsul ixrac edən ölkəyə çevrilmişdi. Azərbaycan həmin illərdə neft və qaz avadanlıqları istehsalına görə dünyada ABŞ-dan sonra ikinci ən güclü ölkə idi. Heydər Əliyev Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə azərbaycanlı milli kadrların hazırlanması işinə də xüsusi diqqət yetirirdi. Onun təşəbbüsünün nəticəsi idi ki, azərbaycanlı gənclər keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərilirdi. Təkcə onu xatırladım ki, 1969-1982-ci illərdə 10 mindən çox azərbaycanlı gənc Rusiya, Ukrayna və digər ölkələrin tanınmış ali məktəblərində təhsil alaraq, respublikaya qayıtmış, Azərbaycanın inkişafına xidmət göstərmişdi və bu gün də göstərirlər. Ümummilli Lider, sözün əsl mənasında, Ən Böyük Azərbaycanlı idi. Ölkənin, xalqın, Azərbaycan tarixinin, onun dövlətçiliyinin böyük təəssübkeşi olan Heydər Əliyev XX yüzilliyin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycanın xilaskarı oldu, beləcə, ölkəmiz parçalanmaq və məhv olmaq təhlükəsindən yan keçdi.

Ümumiyyətlə, Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 40 ilə yaxın bir dövr ərzindəki bənzərsiz fəaliyyəti Azərbaycanın iqtisadi, sosial və mədəni tərəqqisinə, xalqımızın firavanlığı və xoşbəxtliyi, ölkəmizin dünya birliyində özünəməxsus layiqli yer tutması uğrunda mübarizəyə həsr olunmuşdu. Ulu Öndər Heydər Əliyevin yüksək peşəkarlıqla işləyib-hazırladığı milli dövlətçilik strategiyasının əsas nüvəsini müstəqil Azərbaycanın iqtisadi qüdrətinin dirçəldilməsi, artırılması və möhkəmləndirilməsi təşkil edirdi. Onun ölkə iqtisadiyyatının hərtərəfli inkişafı, qloballaşan dünya iqtisadiyyatına inteqrasiyası sahəsində, həqiqətən, misilsiz fəaliyyəti nəticəsində, ölkəmiz sürətli tərəqqi yoluna qədəm qoydu. Dahi Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizin intensiv inkişaf mərhələsini və tariximizin ən şanlı dövrünü təşkil edir. Böyük idarəçilik təcrübəsinə malik Ulu Öndər müstəqil Azərbaycan dövlətçiliyinin milli və bəşəri normalara əsaslanan uzunmüddətli konsepsiyasını işləyib-hazırlamış və onu dəqiqliklə həyata keçirdi. Bunun nəticəsidir ki, Azərbaycan bu gün dünyada özünəməxsus yeri olan dövlətlərdən birinə çevrilib. Xalqını sonsuz məhəbbətlə sevən bu böyük insan bütün həyatını, zəngin dövlətçilik təcrübəsini Azərbaycanın xoşbəxt gələcəyinə, onun inkişaf etmiş sivil dövlətlər səviyyəsinə yüksəlməsinə həsr edib.

Təcrübə də göstərir ki, tarixin olduqca vacib, həlledici məqamlarında ictimai-siyasi təşkilatlanmaya, xalqın maraqlarını təmsil edən qüvvələrin vahid qurumda bir araya gəlməsinə nail olmadan qarşıda dayanmış ümummilli problemlərin həlli mümkün deyildir. Azərbaycan xalqının XX əsrdə yetişdirdiyi ən böyük şəxsiyyət olan Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının yaranması, məhz belə bir tarixi gerçəklikdən qaynaqlandı. 1991-ci ildə Azərbaycan müstəqilliyini elan etsə də, o dövrdə hakimiyyət sükanı arxasında dayanan bəzi siyasətbazların səriştəsizliyi ucbatından bu müstəqilliyi, həqiqi mənada, möhkəmləndirmək, dövlətin dayaqlarını gücləndirmək mümkün olmamışdı. Həmçinin, Ermənistanın işğalçılıq siyasəti, ölkə daxilindəki çəkişmələr cəmi bir il əvvəl qazanılmış müstəqilliyi təhlükə altında qoymuşdu. Belə bir həlledici zamanda cəmiyyətin sağlam qüvvələrinin diqqəti Naxçıvana yönəlmişdi. Azərbaycanın çətin anında, Ümummilli Liderimizin ətrafında sıx birləşməyə, Onun dərin zəkasının köməyi ilə xalqı, yenicə müstəqillik qazanmış dövləti bu fəlakətdən xilas etməyə çalışan insanların çevrəsi cəmiyyətin bütün zümrələrini əhatə edirdi. Xüsusilə, ziyalılar Heydər Əliyevin xalq üçün nə qədər lazımlı olduğunu gözəl bilirdilər. Belə bir məqamda, Azərbaycan xalqının iztirablarını, ölkənin iflasa və məhvə sürüklənməsi təhlükəsini, Azərbaycan ziyalılarının ürək ağrısı və nigarançılığını, həmçinin, bununla bağlı bir qrup görkəmli şəxslərin müraciətini nəzərə alan Ulu Öndər Heydər Əliyev "SƏS" qəzeti vasitəsi ilə onlara yazdığı 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Bu gün mübaliğəsiz deyə bilərəm ki, 1993-cü ildən indiyədək YAP bütün seçkilərdə böyük qələbələr qazanıb. Yeni Azərbaycan Partiyası Heydər Əliyev siyasi məktəbinin ən əsas sütunudur və ən böyük təsirə malik olan siyasi qüvvədir. Partiyanın keçdiyi şərəfli yol xalq-iqtidar birliyinin möhkəm təmələ əsaslandığını, sarsılmaz və əbədi olduğunu təsdiqləyir. 2003-cü ildə keçirilən prezident seçkilərində xalqın böyük əksəriyyətinin səsini qazanaraq, Prezident seçilən İlham Əliyev Azərbaycanın daha da qüdrətli, güclü dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasətinin davam etdirilməsinin vacibliyini bəyan etdi və bu yola sadiqliyini hər bir fəaliyyəti ilə təsdiq etdi. Ötən illər ərzində görülən işlər, əldə olunan uğurlar dövlətimizin başçısı İlham Əliyevin növbəti seçkilərdə də parlaq qələbəsini təmin etdi. Hər bir vədini əməli işi ilə təsdiqləyən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın hərtərəfli inkişafını həyata keçirilən siyasətin önündə saxlayır. Uğurların davamlılığını təmin etmək üçün atılan biri-birindən əhəmiyyətli addımlar da bunu hər gün təsdiq edir.

İctimaiyyətə yaxşı məlum olduğu kimi, 1991-ci ildə müstəqilliyini bərpa edərək, bazar iqtisadiyyatı istiqamətində ilk addımlarını atan Azərbaycan Respublikası böyük iqtisadi və siyasi çətinliklərlə rastlaşmışdı. 1989-cu ildən başlamış geriləmə prosesi müstəqilliyin ilk üç ilində daha da dərinləşmişdi. Əgər 1989-1991-ci illərdə ümumi daxili məhsul istehsalı hər il orta hesabla 5,7 faiz azalırdısa, sonrakı üç il ərzində azalmanın sürəti 3,8 dəfə artmışdır. 1993-cü ildə 1990-cı ilə nisbətən, 2 dəfə az sənaye və kənd təsərrüfatı məhsulu istehsal edilmişdi. Ölkənin belə bir çətin vəziyyətdən çıxarılmasında və Azərbaycan Respublikasının beynəlxalq aləmə və qlobal iqtisadi mühitə sürətlə inteqrasiya etməsində, istərsə də, ölkənin sosial-iqtisadi istiqamətlərdə ciddi uğurlar qazanmasında Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə reallaşan tədbir və islahatların rolu danılmazdır. Heydər Əliyevin bir dövlət və siyasi xadim kimi ölkə, milli iqtisadiyyat, eləcə də, onun ayrı-ayrı sahələri qarşısında duran problemlərə kompleks şəkildə yanaşması bu gün əldə edilən ciddi uğurların əsas təkanvericisidir. Yeni Azərbaycanın bugünkü uğurları müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev tərəfindən müəyyən edilərək, həyata keçirilmiş islahatlarla bağlıdır. Məhz bu islahatlar hesabına Azərbaycanda bazar münasibətlərinə söykənən sosial yönümlü iqtisadiyyatın inkişafına nail olundu, ölkə əhalisinin həyat səviyyəsi yüksəldi. Müstəqilliyin ilk illərində baş vermiş iqtisadi tənəzzülün, vətəndaş müharibəsinin, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin qarşısının alınması, dövlətçilik ənənələrinin və sabitliyin bərpası məqsədilə Heydər Əliyevin atdığı qətiyyətli addımlar, qısa müddət ərzində, hər bir vətəndaşın həyatında hiss olunmağa başladı. Belə ki, 1994-cü ildən başlayaraq iqtisadiyyatda aparılan islahatlar, qanunvericiliyin, vergi və bank sistemlərinin sürətlə dəyişən iqtisadi şəraitə uyğunlaşdırılması, bazar iqtisadiyyatı prinsiplərinə cavab verən yeni iqtisadi siyasətin həyata keçirilməsi bütün sahələrdə inkişaf mərhələsinin başlanmasına təkan verdi. Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, qısa bir zamanda, uğurlu nəticələr verərək iqtisadi inkişafa səbəb olmuş, ölkəmizin qüdrətli iqtisadi dayaqları üçün əsaslar yaratdı - "Əsrin müqaviləsi" üzrə müvəffəqiyyətlə həyata keçirilmiş işlərdən sonra 1997-ci ilin noyabrında "Çıraq" yatağının ilk quyusundan, sonrakı illərdə "Mərkəzi Azəri" yatağından neft, "Şahdəniz" və "Günəşli" yataqlarından qaz hasil olunmuş, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri, Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz qaz kəməri istismara verilmiş və ölkəmiz neftlə yanaşı, qazın da ixracatçısına çevrildi. Məhz görülmüş tədbirlər nəticəsində, iqtisadi inkişafın ümumiləşdirici göstəricisi olan ÜDM istehsalında yüksəlişə nail olunmuşdur. Artıq bu günün reallıqları sübut edir ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursuna uyğun aparılan islahatlar müsbət nəticələr verir və bəhərini qədirbilən xalqımız daim yüksək qiymətlənirir.

Bu gün xalqımız Ulu Öndər Heydər Əliyev siyasətinin uğurlarını gündəlik həyatında hiss edir, onunla yaşayır və Onun irsindən faydalanır. Bu siyasətin icraçısı Ulu Öndərimizin alternativsiz siyasi varisi Cənab İlham Əliyevdir. Onun rəhbərliyi ilə Heydər Əliyev siyasəti yaşayır və uğurla davam etdirilir. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır və gələcəyə istiqamətlənmişdir. Onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub-saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqiyə nail olunması kimi ağır və taleyüklü məsələlərdə sınaqdan çıxmışdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırmış, Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır. Cənab İlham Əliyev Ulu Öndərin siyasi kursunu keyfiyyətcə yeni müstəvidə davam etdirməklə, xalqımızın və dövlətçiliyimizin bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin edir. Ölkəmizdə 11 aprel 2018-ci ildə keçirilən prezident seçkiləri dövlət-xalq birliyini, respublika əhalisinin böyük əksəriyyətinin Prezident İlham Əliyevə dərin inam və məhəbbət bəslədiyini bir daha təsdiq etdi. Xalqımız qətiyyətlə inanır və görür ki, ölkəmizin sürətli, hərtərəfli və dinamik inkişafı Heydər Əliyev siyasi kursu və bu kursu inamla irəli aparan Prezident İlham Əliyevin düşünülmüş və yaradıcı fəaliyyəti ilə bağlıdır. İqtidarla xalq arasında qarşılıqlı inam daha da artıb və bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrilib. Bu inkişaf isə, Azərbaycanın daha güclü və daha qüdrətli ölkəyə çevrilməsinə kifayət qədər zəmin yaradır.

# Azərbaycan bü gün müsəlman dünyasında bir sabitlik adası kimi məşhurdur

*Milli Məclisin deputatı, professor Elman Nəsirovun yap.org.az-a müsahibəsi*

***- Ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu hər iki mərhələ Azərbaycanın dövlətçilik tarixinə intibah dövrü kimi daxil olmuşdur. Bu dövrün birinci mərhələsini (1969-1982-ci illər) necə xarakterizə etmək olar?***



- Ulu öndər Heydər Əliyev şəxsi ləyaqət hissini paklıq zirvəsinə qaldırmağı bacaran və bu unikal keyfiyyəti titanik siyasi fəaliyyətinin məhək daşına çevirməyə nail olan Böyük Azərbaycanlıdır. Bu unukal xüsusiyyəti ilə dünya siyasətində onun rəqibi yoxdur. Yəqin ki, hələ uzun tarixi dövrdə də bu reallıq dəyişməz qalacaqdır. Necə deyərlər, dahilər ən azı 100 ildən bir doğulur.

Ötən əsrin 70-ci illərinin əvvəllərində "Literaturnaya qazeta"ya verdiyi məşhur müsahibəsində "Qoy ədalət zəfər çalsın" deyən Heydər Əliyev özünün milli intibah missiyasının 1969-1982-ci illər tarixi çərçivəsində, sözün həqiqi mənasında, ədalətin zəfər çalmasına nail oldu. Ölkədə həmin illərdə 213 yeni sənaye müəssisəsi istismara verildi. Bakı Məişət Kondisionerləri, Salyan Plastmas Emalı zavodu, Sumqayıtda Kompressor zavodu, Üst Trikotaj fabriki, Bakıda Tikiş, Ayaqqabı hissələri fabrikləri, Şampan şərabı zavodu, Cəncədə Ət kombinatı, Qənnadi fabriki, Əlvan Metallar emalı zavodu, Lənkəranda Konserv zavodu, çay fabriki, Naxçıvanda Şüşə Qablar zavodu, Kəlbəcərdə "İstisu" mineral su zavodu, Yevlaxda Yunun İlkin Emalı fabriki və s. kimi böyük iqtisadi potensialı olan müəssisələr məhz həmin illərdə tikilib istifadəyə verildi. Qeyd edilən 13 il ərzində istehsal olunan sənaye məhsulu öz həcminə görə əvvəlki 50 ilə bərabər idi.

Ümummilli lider Heydər Əliyevin titanik fəaliyyətinin nəticəsi olaraq 1981-ci ildə respublika tarixində ilk dəfə olaraq 402 min ton taxıl, 1 milyon 151 min ton pambıq, 1milyon 616 min ton üzüm, 644 min ton tərəvəz, 41 min ton ton bostan məhsulları, 26 min ton yaşıl çay yarpağı, 125 min ton mal-qara və quş əti, 340 min ton süd, 294 milyon ədəd yumurta və 12 min ton yun tədarük edildi.

Ümumən, həmin illərdə kənd təsərrüfatının məcmu məhsulu 2,6 dəfə artdı.

"Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır",- deyən möhtərəm Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə təhsil, səhiyyə, mədəniyyət, incəsənət və milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı sahəsində də ciddi və əhəmiyyətli addımlar atıldı.

Xüsusilə 1970-1980-ci illərdə ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və xüsusi ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şəraitin yaradılması təkcə elmi deyil, həm də böyük siyasi əhəmiyyəti olan hadisə idi. Onu da qeyd edək ki, Azərbaycandan kənarda təhsil alanların milli tərkibində azərbaycanlıların sayı 1970-ci ilədək 40 faiz təşkil edirdisə, ümummilli lider Heydər Əliyevin apardığı uzaqgörən siyasət nəticəsində 1976-cı ildə müvafiq göstərici 85 faizə, 1977-ci ildə 92 faizə, 1980-ci illərin əvvəllərində isə 97, 6 faizə yüksəlmiş oldu. Bu addımlar öz xarakteri etibarilə strateji məzmun kəsb edirdi. Daha dəqiq desək, bir tərəfdən Azərbaycanın yüksək ixtisaslı kadrlara olan ehtiyacını təmin edirdi, digər tərəfdən potensial Azərbaycan diasporunun formalaşması prosesinin konturları cızılırdı. Təsadüfi deyildir ki, bu gün MDB məkanında Azərbaycan diasporunun sosial tərkibinin böyük bir hissəsini məhz həmin illərdə ulu öndərin xeyir-duası ilə təhsil almış insanlar təşkil edir və onlar müstəqil dövlətimizin maraqlarını təmsil olduqları ölkələrdə şərəflə qoruyurlar

***- Ümummilli lider Heydər Əliyev xalqımızın və dövlətçiliyimizin tarixində xilaskarlıq missiyasını yerinə yetirmişdir. Bu missiyanın mahiyyəti və fəlsəfəsi nədən ibarətdir?***

- Heydər Əliyev 1969-1982-ci illərdə Sovet İttifaqı çərçivəsində perspektiv müstəqil Azərbaycan dövləti üçün xidmət edə biləcək bütün zəruri addımları atmağa nail oldu. 1991-ci ildə müstəqilliyini bəyan edən Azərbaycan Respublikası əslində real suverenliyinə 1993-cü ildə nail oldu. Həmin il xalqın israrlı tələb və xahişindən sonra Heydər Əliyevin hakimiyyətə qayıdışı baş verdi və bununla da Azərbaycanda milli intibah dövrünün ikinci mərhəsi (1993-2003-cü illər) başlandı. Bu dövr ulu öndərin təbirincə desək, "müstəqilliyin əldə edilməsindən daha çətin olan onun qorunması və möhkəmləndirilməsi" ilə xarakterizə olunurdu. Müstəqilliyimiz üçün ən böyük təhdid mənbəyi Ermənistanın təcavüzkar siyasəti ilə bağlı idi.

Yeri gəlmişkən, burada bir həqiqəti də xüsusi olaraq qeyd edək ki, Azərbaycan xalqının ən ağır dərdi olan Dağlıq Qarabağ problemi ilə bağlı ulu öndər Heydər Əliyevin 1969-1982-ci illərdə həyata keçirdiyi siyasətin nəticəsində bu dövrdə erməni millətçiləri bir dəfə də olsun ölkəmizə qarşı ərazi iddialarını açıq şəkildə dilə gətirməyə cəsarət etmədilər və buna imkan verilmədi. Prezident Ilham Əliiyevin Sumqayıtın 70 illiyinə həsr olunmuş tədbirdə qeyd etdiyi kimi, "1987-ci ildə Heydər Əliyev vəzifədən gedəndən sonra iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana vermək haqqında beynəlxalq mətbuatda və sovet mətbuatında məsələ qaldırmışlar. Artıq Dağlıq Qarabağda separatçı meyillərə elə bil ki, yaşıl işıq yandırıldı. Heydər Əliyev vəzifədən gedəndən 3 ay sonra Sumqayıt hadisələri baş vermişdir. Sumqayıt hadisələri də məkrli planın tərkib hissəsi idi. Plan ondan ibarət idi ki, Heydər Əliyev hakimiyyətdən getsin. Çünki onun Siyasi Büronun üzvü kimi fəaliyyəti erməni millətçilərə imkan vermirdi ki, məsələ qaldırsınlar"..

Bu şəraitdə dövlətçiliyimiz üçün ən təhlükəli proses separatizm və onun nəticəsində ərazi bütövlüyümüz növbəti dəfə pozulması təhlükəsi ilə bağlı idi. Erməni işğalçılarının aramsız hücumları, Cənubda "Talış Muğan Respublikası"nın elan edilməsi, şimalda "Sadval" təşkilatının ərazi iddiaları və Gəncədə Surət Hüseynova məxsus hərbi hissənin üsyan etməsi həmin dövrdə ölkəmizin dəhşətli siyasi kataklizmlər mərhələsində olduğunu bir daha təsdiqləyir. Əslində respublikamız real vətəndaş müharibəsi astanasına idi. Ölkədə hakimiyyətsizlik və xaos hökm sürürdü. İnfilyasiya 1992-ci ildə 1174%, 1993-cü ildə isə 1080%-ə çatmışdı. Yuxarıda qeyd etdiyimiz kimi, yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi və xahişi ilə hakimiyyətə qayıdışından sonra hədəfinə çevrildiyimiz bu ağır problemlər öz həllini tapmağa başladı. Lakin bu prosesin özü də hamar yol ilə getmədi. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında Azərbaycanın müstəqilliyini istəməyən xarici qüvvələrin himayəsi ilə respublikamızda dövlət çevrilişlərinə cəhdlər edildi. Prezident Heydər Əliyevlə xalqın sarsılmaz birliyi bu sınaqlardan da uğurlu çıxışı təmin etdi. Zəmanəmizin dühası olan Heydər Əliyev xalqımızın və dövlətçiliyimizin tarixində, əgər bir sözlə ifadə etmək mümkünsə, məhz Xilaskar missiyasını yerinə yetirdi.

Ümummilli lider Azərbaycanda demokratik inkişaf proseslərinin də əsasını qoydu. Ölkəmizdə şəxsiyyətin azadlığı və toxunulmazlığı, habelə onların hüquqi müdafiəsi təmin edildi, çoxpartiyalı sistem üçün əsaslar yaradıldı, siyasi plüralizm, vicdan və etiqad azadlığı, azlıqların hüquqları, qanun qarşısında bərabərlik təmin edildi. Azərbaycan Respublikasının qanunvericilik aktlarında əks olunan, onun ayrılmaz komponenti olan təqsirsizlik prezumpsiyası təmin edildi. Bundan savayı, Konstitusiya Məhkəməsi, üçpilləli məhkəmə sistemi, yeni məhkəmə korpusu yaradıldı, məhkəmələrin müstəqilliyi və prosedur qaydalarının şəffaflaşması təmin edildi, on minlərlə insan amnistiya edildi və böyük sayda məhkum bağışlandı, senzura ləğv edildi, KİV-in azadlığı və QHT-lərin sərbəst fəaliyyəti təmin edildi.

Bu prosesdə-demokratik dövlət quruculuğu istiqamətində ümummilli liderin miras qoyduğu irsin öyrənilməsi, təbliği və tətbiqində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xidmətləri müstəsna əhəmiyyət kəsb edir. Başqa sözlə, ulu öndərin irsinin öyrənilməsi istiqamətində irimiqyaslı proqramların həyata keçirilməsini dəstəkləmək, Azərbaycan xalqının rifahının yüksəldilməsinə yönəldilmiş təşəbbüsləri himayə etmək, ölkədə elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, milli-mənəvi dəyərlərə sadiq gənclərin yetişdirilməsinə və digər mühüm vəzifələrin yerinə yetirilməsinə nail olmaq ölkənin birinci xanımının rəhbərlik etdiyi təşkilatın genişmiqyaslı fəaliyyətinin prioritet istiqamətlərini təşkil edir və geniş ictimaiyyət tərəfindən olduqca yüksək dəyərləndirilir. Hörmətli Mehriban xanımın qazandığı ümumxalq sevgisinin kökündə dayanan əsas amil insanların inamını qazanması ilə bağlıdır. Mehriban xanım Əliyeva 2018-ci ilin 28 fevral tarixində Rusiyanın nüfuzlu "Rossiya-24" kanalına müsahibəsində bu xüsusda haqlı olaraq vurğulayır ki, " Üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam."

***- Prezident İlham Əliyev rəhbərliyi altında Azərbaycan sürətli, dinamik və hərtərəfli inkişaf yolu ilə irəliləməkdədir. Bu inkişaf yolunu şərtləndirən amillər haqqında fikirlərinizi bilmək istərdik.***

- Azərbaycan xalqı qəlbində əbədi heykəlini qoyduğu ulu öndərin vəfatının 16-cı ildönümünü onun siyasi xətti ətrafında daha sıx və monolit birlik nümayiş etdirərək qeyd edir. Eyni zamanda xalqımız Heydər Əliyevin fiziki itkisindən nə qədər çox kədərlənsə də, təskinliyini onda tapır ki, bu gün ulu öndərin şah əsəri olan müstəqil Azərbaycan etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempinə malikdir. Zəmanəmizin dühasından "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm",-qiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. O, Azərbaycanın çağdaş tarixinə yeni missiya ilə daxil olmuşdur. Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır.

Sabitlik, təhlükəsizlik və inkişaf bu mərhələni tam xarakterizə edən ifadələrdir. Sözün həqiqi mənasında son 16 il ərzində ölkəmizdə sabitlik və əminamanlıq hökm sürmüşdür. Azərbaycan bü gün müsəlman dünyasında bir sabitlik adası kimi məşhurdur. Təkcə sabitliyin olmaması kifayətdir ki, dövlət xaos və anarxiyaya yuvarlansın. Qonşu regionlarda və dünyada baş verən qanlı münaqişılır, toqquşmalar, müharibələr, risqlər və təhdidlər fonunda ökləmizdə həyat tərzinə çevrilmiş sabitlik mühiti bizim tarixi nailiyyətimiz və sərvətimizdir. Sabitliyimiz təhlükəsizliymizi şərtləndirir. Sabitlik və təhlükəzsizliyimizin təminatçısı Azərbaycan xalqı və onun hakimiyyətlə olan monolit birliyidir. Səfərbər olunmuş cəmiyyət və vətəndaş həmrəyliyidir. Bu birliyin kökündə dayanan əsas amil xalqın öz Prezidentinə olan inamı, etimadı və etibarı ilə bağlıdır. Prezidentin xalqının sevgisini qazanmasını şərtləndirən əsas amil isə, onun hər hansı beynəlxalq siyasi dairənin və ya dövlətin diqtəsi altında deyil, məhz öz xalqının mənafeyindən irəli gələn bir siyasəti həyata keçirməsidir. Həmin siyasətin adına müstəqil siyasət deyirlər. Bəli, Azərbaycan Prezidenti cənab İlham Əliyev bütün dünyada müstəqil siyasət həyata keçirən lider kimi tanınmış və nüfuz sahibi olmuşdur. Müstəqil siyasət həyata keçirmək çətin, mürəkkəb, lakin şərəfli fəaliyyətdir. Dövlət başçısının özünün qeyd etdiyi kimi, ən asan olan hər hansı bir böyük dövlətin qanadları altına sığınıb öz siyasətini həyata keçirməkdir. Lakin bu siyasət heç bir halda hakimiyyətin mənbəyi olan xalqın milli mənafeyini nəzərə ala bilməz. Prezident İlham Əliyev üçün hər şeydə ümdə olan məhz milli maraqlardır. Elə bu səbəbdən dövlətimizn rəhbəri İlham Əliyev çətin, lakin şərəfli yolu seçmişdir. Bu yol ardıcıl, sistemli, davamlı və dərinləşən islahatlar yoludur. Bu yol bizə ulu öndər Heydər Əliyevdən miras qalmışdır. Məhz bu yolla getdikdə xalq öz taleyinin sahibi olur. Məhz bu yol yegənə düzgün yoldur. Məhz bu yolla Prezident İlham Əliyev Azərbaycanı uca zirvələrə aparır.

# Yeni Azərbaycan Partiyasının “Xalq üçün” devizi ilə seçki təbliğatı uğurla keçirilir

## BİLƏSUVAR

23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Biləsuvar rayon şöbəsi bələdiyyə seçkilərinə “Xalq üçün” devi-





zi ilə təbliğat-təşviqat kampaniyasını uğurla keçirir. Kampaniya çərçivəsində YAP Biləsuvar rayon təşkilatının seçki qərargahı rayonun Bəydili və Çinarlı kəndlərində seçicilərlə görüşdə rayon təşkilatının Seçki Qərargahının üzvü Qənbərəli Bağırov və rayon təşkilatının aparat rəhbəri Əjdər Niftiyev seçicilər qarşısında çıxış edərək, ölkədə həyata keçirilən irimiqyaslı layihələrin ölkə Prezidenti İlham Əliyevin adı ilə bağlı olduğunu və bütün bunların ölkə vətəndaşlarının rifahı naminə həyata keçirildiyini bildiriblər. Çıxış edənlər, onu da vurğulayıbdar ki, biləsuvarlılar bütün seçki proseslərində olduğu kimi, bu seçkilərdə də çox böyük fəallıq göstərərək, dövlətə və dövlətçiliyə sədaqətlərini nümayiş etdirəcəklər. Eyni zamanda, rayonun Dərvişli və Çinarlı kəndlərinin seçiciləri də Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklər.

Görüşdə çıxış edən Bəydili kənd sakinləri Əfsər Həşimov, Xüdaşükür Əliyev, Çinarlı kənd sakinləri Rafiq Cəfərov, Ramiz Əliyev və başqaları bildiriblər ki, hamılıqla seçkilərdə fəal iştirak edərək, Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklər.

## ŞAMAXI

Bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Şamaxı rayon təşkilatının seçki qərargah üzvləri Məlikçobanlı, Göylər, Çöl -Göylər və Hacıqədirli kənd sakinlərilə görüş keçiriblər.

Görüşdə YAP Şamaxı rayon təşkilatın seçki qərargah üzvləri Ağarza Bayramov təşkilatının gördüyü işlər barədə məlumat verərək, qarşıdakı növbəti bələdiyyə seçkisinin əhəmiyyətindən danışıb, eyni zamanda, ölkə Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq, gənclərin idarəetmə orqanlarında və seçki prosesindəki iştirakının artdığını qeyd edib. A.Bayramov əlavə olaraq bildirib ki, Şamaxı rayon ərazisində 29 Bələdiyyə fəaliyyət göstərir. Bu bələdiyyələrin, ümumilikdə, 259 üzvü vardır. Yeni Azərbaycan Partiyası Şamaxı rayonunda olan 259





bələdiyyə üzvü yerinin hər birinə öz namizədlərini irəli sürmüşdür.

YAP Şamaxı rayon təşkilatının seçki qərargah üzvü Nəzakət Abdulrazaqova çıxış edərək, artıq ölkəmizdə bələdiyyə institutunun formalaşdığını bildirib və bu sahədə görülən işlərdə gənclərin böyük rolunun olduğunu qeyd edib. Həmçinin, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasətindən və bu gün gənclərə böyük etimad göstərildiyini vurğulayıb.

Çıxış edənlər gəncləri bələdiyyə seçkisində fəal olmağa, seçki günü seçki məntəqələrinə gəlib, Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

## QARADAĞ

Bu il dekabrın 23-də keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı Qaradağ rayonunda da mütəmadi tədbirlər keçirilir. Təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüş rayonun Ümid qəsəbəsində olub. YAP Qaradağ rayon təşki-



latının aparat rəhbəri Hacı İbrahimov çıxış edərək, partiya tərəfindən bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülmüş nümayəndələr barədə ətraflı məlumat verib: “Uzun illər boyu xalqın etimadını əməli fəaliyyəti ilə doğruldan partiyamızın üzvləri bu seçkidə ənənələrinə sadiqliyini qorumaq əzmindədirlər. Bu səbəbdən də, namizədlərimizi dəstəkləməklə, onlara səs verəcəyiniz təqdirdə, arzu və istəyinizin reallaşacağına əmin ola bilərsiniz. Çünki partiyamızın ali məqsədi dövlətçiliyimizin möhkəmləndirilməsi, ölkəmizin bütün sahələr üzrə dinamik inkişaf etdirilməsi və xalqımızın sosial şəraitinin durmadan yüksəldilməsidir”.

YAP rayon təşkilatı tərəfindən namizədliyi irəli sürülmüş şəxslər platformaları barədə seçicilərə geniş məlumat verərək, onların çoxsaylı suallarını cavablandırıblar.

Çıxış edən seçicilər növbəti bələdiyyə seçkilərində də YAP tərəfindən irəli sürülmüş namizədləri yekdil səslə dəstəkləyəcəklərini bildiriblər.

## KÜRDƏMİR

YAP Kürdəmir rayon təşkilatı 23 dekabr 2019-cu ildə keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı təbliğat kampaniyası çərçivəsində Şıxımlı, Atakişili kəndlərinin seçiciləri ilə görüş keçirib. Görüşlərdə YAP-ın Mərkəzi Seçki Qərargahının Kürdəmir rayon şöbəsinin sədri Ağali Kərimli çıxış edərək bildirib ki, ölkənin ictimai-siyasi həyatında aparıcı qüvvə olan Yeni Azərbaycan Partiyası, bütün seçkilərdə olduğu kimi, qarşıdakı növbəti bələdiyyə seçkilərinə də yüksək fəallıqla başlayıb. A.Kərimli Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən yaradılmış Yeni Azərbaycan Partiyasının Azər-







baycan cəmiyyətinin demokratikləşməsindəki müstəsna yeri və rolu, ölkəmizdə keçirilmiş bütün seçkilərdə qazandığı parlaq qələbələr, 2003-cü ildən etibarən Ulu Öndərimizin əbədiyaşar ideyalarının müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi və uğurla davam etdirilməsi nəticəsində, Prezident İlham Əliyevin rəhbərliyi ilə, son 16 ildə ölkəmizin əldə etdiyi misilsiz siyasi, iqtisadi, sosial, mədəni nailiyyətlər, əhalinin sosial rifahının daha da yüksəldilməsi məqsədilə icra olunan sosial layihələr, ölkəmizdə yerli özünüidarəetmə strukturları olan bələdiyyə institutunun inkişafı və fəaliyyət mexanizmi üçün yaradılmış zəruri qanunvericilik bazası, xüsusilə, son dövrdə bələdiyyələrin maliyyə mənbələrində yaradılmış yeni imkanlar və bələdiyyələrlə bağlı görüləcək işlər haqqında rayon seçicilərinə geniş və ətraflı məlumat verib. Bildirib ki, bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən ən layiqli namizədlər, əsasən, gənclər irəli sürülüb. Və seçki günü bütün seçiciləri seçki məntəqələrinə dəvət edərək, Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləməyə çağırıb. Yığıncaqda seçicilərdən Elmira Süleymanova, Qızlar Əzizova, Türfə Kərimova və digərləri

# Yeni Azərbaycan Partiyasının “Xalq üçün” devizi ilə seçki təbliğatı uğurla keçirilir

çıxış edərək, seçiciləri 23 dekabr bələdiyyə seçkilərində fəal iştirak etməyə, ölkəmizin hərtərəfli inkişafının davamlı olması naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

## QOBUSTAN

Yeni Azərbaycan Partiyası Qobustan rayon şöbəsinin qərargah üzvləri 23 dekabr 2019-cu ildə keçiriləcək bələdiyyə seçkilərilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Cəyirli və Çalov kəndlərində seçicilərlə görüşlər keçiriblər. YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev görüşlərdə çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyasının sədri, dövlət başçısı İlham Əliyevin beynəlxalq aləmdə və xalqımız arasında nüfuzu çox yüksəkdir: “Ona görə də, tam əminliklə deyə bilərəm ki, 23 dekabr bələdiyyə seçkilərində xalqımız özünün layiqli namizədlərinə etimad göstərəcəkdir. Bunun da, çox ciddi əsasları var. Dünyada baş verən mürəkkəb proseslərin fonunda Azərbay-





can yüksək dinamika ilə inkişaf edir, ictimai-siyasi sabitlik təmin olunub, ölkədə lider-xalq birliyi sarsılmazdır. Bütün bunlar Prezident İlham Əliyevin həyata keçirdiyi mükəmməl siyasətin nəticəsidir. Azərbaycan Prezidentinin, partiyamızın Sədrinin gördüyü möhtəşəm, əzəmətli işlər nəticəsində, Azərbaycan tarixində olmadığı qədər güclü dövlətə çevrilib. Bu gün Azərbaycanda xalq iqtidar birliyi möhkəmdir, sarsılmazdır. Bu birliyi şərtləndirən əsas amillər iqtisadi tərəqqi və güclü sosial siyasətdir. Xalq hər bir zaman özünə diqqət və qayğını görür, gələcəyə böyük inam bəsləyir. Bu inkişafı daha da sürətləndirmək üçün seçkilərdə fəal iştirak etməli 23 dekabrda seçicilər seçki məntəqələrinə gələrək, ən layiqli namizədlərə səs verməyə çağırıram”.

Görüşlərdə təbliğat-təşviqat qrupunun üzvü Cəfərov Zaur, Ağaməmmədov Cahangir, kənd sakinlərindən Hacı Bayram Baloğlanov, Ağakərim Şirinov, Alcan Alcanov, Nemət Alcanov, Məsud Əliyev və başqaları çıxış edərək, qeyd ediblər ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət nəticəsində, Azərbaycanın iqtisadi, ictimai-siyasi, mənəvi, mədəni həyatının bütün istiqamətlərində uğurların əldə edildiyini bildiriblər. Çıxış edənlər onu da bildiriblər ki, Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev ölkəmizə son 16 ildə daha böyük nailiyyətlər qazandırıb və bu inkişaf siyasətində YAP üzvləri də yaxından iştirak edib.

Sonda kənd sakinləri Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, ölkəmizin xoşbəxt gələcəyi, müstəqil Azərbaycan dövlətinin qüdrətlənməsi naminə, 23 dekabrda keçiriləcək bələdiyyə seçkilərində seçicilərin seçki məntəqələrinə gələrək, ən layiqli namizədlərinə səs verməyə çağırıblar.

## ASTARA

Bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində, Astara rayonunun Kijabə qəsəbəsində Yeni Azərbaycan Partiyası tərəfindən seçicilərlə görüş keçirilib. Görüşü giriş sözü ilə açan YAP Astara rayon təşkilatı-





nın sədri Firudin Əhmədov rayon təşkilatı tərəfindən görülən işlər barədə məlumat verib. Qarşıdan gələn bələdiyyə seçkilərinin əhəmiyyətindən danışaraq, ölkə Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq, gənclərin idarəetmə orqanlarında və seçki proseslərindəki iştirakının artdığını bildirib.

Tədbirdə çıxış edən rayon ağsaqqaları Gülağa Rzayev, Ələsgər Əliyev bildiriblər ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən iştirak etdiyi bütün seçkilərdə qələbə qazanıbdır. Və 23 dekabr 2019-cu ildə keçiriləcək bələdiyyə seçkilərində də YAP-ın namizədləri, birmənalı olaraq, qələbə qazanacaq. Çünki YAP xalqla bir olan partiyadır.

Qəsəbə sakinləri Təbrizə Rəsulova, Əhliman Müqəddəsov, Ələkbər İsayev çıxış edərək bələdiyyə seçkilərində fəal iştirak edəcəklərinə və YAP-ın layiqli namizədlərinə səs verəcəklərini bildiriblər.

## SAMUX

Respublikamızın hər yerində olduğu kimi, YAP Samux rayon təşkilatı 23 dekabr 2019-cu il tarixində keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyasını davam etdirir. Bu gün YAP Samux rayon təşkilatının təbliğat qrupunun üzvlərinin iştirakı ilə Hacıalılı kəndində görüş keçirib. Görüşdə təbliğat-təşviqat qrupunun üzvləri Namiq Cəfərov, Oqtay Hümbətov, YAP Samux rayon təşkilatının gənclər birliyinin sədr müavini Rəşad Şabanov, bələdiyyəyə





namizədlər və YAP fəalları iştirak edib.

Görüşdə təşviqat qrupunun üzvləri çıxış edərək, ölkə Prezidentinin həyata keçirdiyi uğurlu siyasətdən, əhalinin sosial rifah halının yaxşılaşdırılmasından, ölkəmizdə və eləcə də, rayonda görülən işlərdən danışaraq, seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməklə, seçiciləri seçkilərə dəvət ediblər.

Hacıalılı kəndindən bələdiyyə namizədlərindən Gülnar Yusifova, Nizami Abbasov və Fərhad Həsənov da çıxış edərək, qarşıya qoyulan vəzifələrə layiqincə əməl edəcəklərini bildiriblər.

## QUSAR

Ölkəmizdə 23 dekabr tarixində keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Qusar rayon təşkilatı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Dünən Qusar şəhərində qadın seçicilərlə görüş keçirilmişdir. Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyasının bələdiyyə seçkilərində səlahiyyətli nümayəndəsi,



YAP Siyasi Şuranın üzvü, təşkilatın sədri David İbramxəlilov bu seçkilərdə bələdiyyəyə namizədlərin tərkibində qadınların və gənclərin sayının əhəmiyyətli dərəcədə artdığını diqqətə çatdırıb. O, seçiciləri bələdiyyə seçkilərində fəallıq göstərməyə və partiyanın namizədlərinə səs verməyə çağırıb.

Ardı Səh. 10

# Yeni Azərbaycan Partiyasının “Xalq üçün” devizi ilə seçki təbliğatı uğurla keçirilir

Əvvəli Səh. 9

Qusar bələdiyyəsi üzvlüyünə namizədlər Neva Abdurahmanova, Zalikə Qayibxanova və Firuzə Qazimətova seçicilər qarşısında çıxış edərək, Yeni Azərbaycan Partiyasının



qarşıdakı bələdiyyə seçkilərində də böyük qələbəyə imza atacağına qeyd edərək, Yeni Azərbaycan Partiyası tərəfindən namizədliklərinin irəli sürüldüyünə görə minnətdarlıqlarını bildiriblər. Namizədlər partiyanın onlara göstərdiyi etimadı doğruldaraq, səlahiyyətləri çərçivəsində, sakinlərin problemləri ilə yaxından tanış olacaq, bu problemlərin öhdəsindən gələcəklərinə söz veriblər.

Görüşdə çıxış edən seçicilər Yeni Azərbaycan Partiyasının layiqli namizədlərinə səs verəcəklərini bildirdilər.

## TƏRTƏR

YAP Mərkəzi Seçki Qərargahının Tərtər rayon şöbəsi tərəfindən bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP tərəfindən namizədlikləri






irəli sürülmüş bələdiyyə üzvlüyünə namizədlər və seçicilərlə Cəmilli, Ələsgərli kənd bələdiyyələrində təhsil işçiləri ilə görüş keçirib. Görüşdə YAP Mərkəzi Seçki Qərargahının Tərtər rayon şöbəsinin və rayon təşkilatının sədri Ramiz Şabanov, YAP-ın səlahiyyətli nümayəndəsi Kamil Məmmədov çıxış edərək, qeyd ediblər ki, builki bələdiyyə seçkiləri ölkəmizin hərtərəfli inkişaf etdiyi xalqımızın rifah halının yaxşılaşdırılması sahəsində böyük uğurlara imza atıldığı bir dövrdə keçirilir. Çıxışlarda, o da vurğulanıb ki, Azərbaycan xalqı ötənilki beş illə müqayisədə, bu gün daha sabit bir ölkədə daha firavan yaşayır. YAP keçdiyi yola özünütənqid şəkildə nəzər salaraq, builki bələdiyyə seçkilərində namizədlikləri irəli sürülən partiya üzvlərinin arasında, müasir düşüncə tərzinə yiyələnmiş, bilikli şəxslərin sayının daha çox olmasına diqqət yetirib.

Görüşdə YAP Tərtər rayon təşkilatının təbliğat-təşviqat qrupunun üzvlərindən Rəşad Şahbazov, Bahar Hüseynova, Cəmilli bələdiyyəsi üzrə namizədlərdən Gülnisə Süleymanova, Namiq Təhməzov, Minarə Vəliyeva, kənd sakini Məhəmməd Abdullayev, Ələsgərli bələdiyyəsinə namizədlərdən İntiqam Nuriyev, Fuad Familzadə, Fəxriyyə Sadıqova, kənd sakinlərindən Almaz Muradova, Yusif Muradov, Tərtər bələdiyyəsi üzvlüyünə namizədlərdən Samirə Zeynalova, Fərid Nemətzadə, Mehman Nəsirov, şəhər sakinlərindən Solmaz Zeynalova, Şəlalə Həsənova, Məlahət Nuriyeva və digərləri çıxış edərək, bələdiyyə seçkilərində ölkəmizin hakim partiyası olan YAP-ın namizədlərinin qalib olmaları üçün həyata keçirilməli olan tədbirlərdən danışıblar.

## GƏNCƏ

23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Gəncə şəhər təşkilatının qərargahında gənc partiya fəalları ilə görüş keçirilib.





Görüşdə Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsi, YAP-ın Mərkəzi Seçki Qərargahının Gəncə şəhər şöbəsinin sədri, Milli Məclisin deputatı Naqif Həmzəyev çıxış edərək, ölkəmizdə alternativsiz siyasi qüvvə olan Yeni Azərbaycan Partiyasının şəhər və rayon təşkilatlarının həyata keçirdikləri təbliğat-təşviqat kampaniyasında yüksək seçki əhval-ruhiyyəsi müşahidə olunduğunu bildirib.

N.Həmzəyev YAP-ın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və sistemli islahatlar nəticəsində, ölkəmizin son illərdə qazandığı uğurlardan bəhs edən millət vəkili cəmiyyətdə gənclərin rolundan danışıb: “Azərbaycan gənci bu gün ölkəmizin siyasi, mədəni və ictimai həyatında mühüm yer tutur, dövlətimiz və partiyamız bacarıqlı, istedadlı gənclərin uğurla irəli getmələri üçün geniş meydan açıb, zəruri tədbirlər həyata keçirir”.

Yeni Azərbaycan Partiyasının, əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də qalib gəlmək əzmində olduğunu vurğulayan Naqif Həmzəyev partiyanın bələdiyyələrin işinin yüksəldilməsi üçün səmərəli tədbirlər həyata keçirdiyini qeyd edib. Millət vəkili bildirib ki, bu işdə bələdiyyələrə seçiləcək partiya üzvlərinin üzərinə böyük məsuliyyət düşür. İnanırıq ki, 23 dekabr bələdiyyə seçkiləri günü gənclərimiz partiyanın etimadını nümunəvi xidmətləri ilə doğruldacaqlar.

YAP Gəncə şəhər təşkilatının qadınlar şurasının sədri, millət vəkili Pərvin Kərimzadə Prezident İlham Əliyevin daim diqqət və qayğısını öz üzərlərində hiss edən gənclərin, partiyanın namizədləri, əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də böyük fəallıq və coşqu nümayiş etdirəcəklərinə, bu siyasi kampaniyanın yüksək səviyyədə keçirilməsinə nail olacaqlarına əmin olduğunu bildirib.

Görüşdə çıxış edən gənclər xalqımızın rifahı və ölkəmizin inkişafı naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini bildiriblər.

Geniş diskussiya, yüksək əhval-ruhiyyə şəraitində keçən görüşdə gəncləri maraqlandıran suallar cavablandırılıb.

## YAP Gəncə şəhər təşkilatında bələdiyyə üzvlüyünə qadın namizədlərlə görüş keçirilib

23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatında YAP







tərəfindən irəli sürülmüş qadın namizədlərlə görüş keçirilib.

Tədbiri giriş sözü ilə açan millət vəkili YAP Gəncə şəhər təşkilatının qadınlar şurasının sədri Pərvin Kərimzadə bələdiyyə üzvlüyünə namizədləri təbrik edib, onlara qarşıdan gələn seçkilərdə uğurlar arzulayıb. O bildirib ki, “ölkəmizin siyasi arenasında özünəməxsus yer tutan Yeni Azərbaycan Partiyası bütün seçkilərə, məhz xalqın dəstəyini qazana biləcək namizədlərlə gedib: “23 dekabr-Bələdiyyə seçkilərində YAP-ın böyük qələbə qazanmasına yerli özünüidarəetmə orqanlarında partiyamızın yüksək təmsilçiliyinin təmin olunması əsas verir. Çünki Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən siyasət nəticəsində ölkəmiz, o cümlədən, regionlar dinamik inkişaf edir. Paytaxt Bakı ilə yanaşı ən ucqar kəndlərdə abadlıq-quruculuq işləri, iqtisadi inkişaf kimi amillər insanların rifah halının yaxşılaşmasında müsbət dəyişikliklərə səbəb olub”.

Ölkə Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq, qadınların idarəetmə orqanlarında və seçki proseslərindəki iştirakının durmadan artmaqda olduğunu qeyd edən P.Kərimzadə bələdiyyə seçkilərində namizədlər içərisində qadınların sayının üstünlük təşkil etdiyini, bunun da qarşıdan gələn bələdiyyə seçkilərində iş prosesinə müsbət təsir göstərəcəyini diqqətə çatdırıb.

Ardı Səh. 11

# Yeni Azərbaycan Partiyasının “Xalq üçün” devizi ilə seçki təbliğatı uğurla keçirilir

**Əvvəli Səh. 10**

Daha sonra çıxış edən Rəfiqə Sadıqova, Gülsüm Fətəliyeva, Aidə Qasımova, Naciyə Əliyeva, Günay Nəsibova və Zülfiyyə Həsənova cəmiyyətdə bələdiyyələrin rolunun artmasının vacibliyindən, qarşıda duran vəzifələrdən danışıblar. Natiqlər bildiriblər ki, ölkə Prezidenti İlham Əliyevin daim diqqət və qayğısını öz üzərlərində hiss edən gəncəlilər, əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seşkilərində də böyük fəallıq və coşqu nümayiş etdirəcək, bu siyasi kampaniyanın yüksək səviyyədə keçirilməsinə nail olacaqlar.

Tədbir iştirakçıları seçkidə YAP-ın qalib gələcəyinə inandıqlarını ifadə edərək, hər kəsi seçkidə fəal olmağa, “Xalq üçün” səs verməyə çağırıblar.

## DAŞKƏSƏN

23 dekabrda ölkəmizdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Daşkəsən rayon təşkilatı Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir.






Rayonun Qaraqullar, Muşavaq, Yuxarı Daşkəsən qəsəbə və Xoşbulaq kəndlərində seçicilərlə keçirilən görüşdə Seçki Qərargahının üzvlərindən Sərdar Xıdırov, Müşviq Hüseynov, YAP Daşkəsən rayon təşkilatı gənclər birliyinin sədri Kənan Bayramov və başqaları çıxış edərək, seçiciləri bələdiyyə seçkilərində aktiv iştirak etməyə çağırıblar. Natiqlər, əmin olduqlarını bildiriblər ki, ölkəmizdə keçirilən bütün seçkilərdə uğur qazanan YAP bu seçkilərin də qalibi olacaq.

Tədbirdə YAP-ın bu gün bələdiyyə seçkilərinə “Xalq üçün” devizi ilə getdiyini, bu seçkilərin də qalibi partiyanın namizədləri olacaqları bildirilib.

## AĞSU

YAP Ağsu rayon təşkilatı təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun səhiyyə işçiləri ilə növbəti görüş keçirilib. Tədbiri giriş sözü ilə açan YAP Ağsu rayon təşkilatının





sədri Əli Hüseynov bildirib ki, Yeni Azərbaycan Partiyasının bələdiyyə seçkiləri ilə bağlı apardığı işləri təhlil edərkən, belə qənaətə gəlmək olur ki, respublikada keçirilən bütün seçkilər, o cümlədən, bələdiyyə seçkiləri demokratik prinsiplər əsasında keçirilir: “Biz dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində səhiyyə işçilərinin yaxından iştirak edəcəklərinə əminik. Prezident İlham Əliyevin bütün sahələrdə, o cümlədən səhiyyə sahəsindəki islahatların davamlı şəkildə həyata keçirilməsində bələdiyyələr də, artıq öz sözünü deməkdədir”.

Sonra YAP Ağsu rayon təşkilatının qərargah üzvləri Məlahət İbrahimova və Leyla Rüstəmzadə çıxış edərək, bələdiyyə seçkilərində iştirak edəcəklərini və seçkilərdə YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər.

## ZƏRDAB

23 dekabr 2019-cu il tarixdə keçiriləcək bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyasına yüksək fəallıqla başlayan Yeni Azərbaycan Partiyası təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Seçki qərargahının təbliğat-təşviqat qrupu növbəti görüşünü rayonun Qaravəlli kəndində Qaravəlli, İsaqbağı və Böyük Dəkkə kəndlərindən olan seçicilərlə keçirib.






Görüşdə Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsi, YAP Zərdab rayon təşkilatının aparat rəhbəri Səbuhi Kərimov çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyası, ötən müddət ərzində, müstəqil Azərbaycan dövlətinin inkişafına mühüm töhfələr vermiş və hazırda bu istiqamətdə fəaliyyətini uğurla davam etdirir. 23 dekabr 2019-cu il tarixdə keçiriləcək Bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən ən layiqli namizədlər, əsasən, gənclər irəli sürülmüşdür. Azərbaycan gənci bu gün ölkəmizin siyasi, mədəni, ictimai həyatında mühüm yer tutur, dövlətimiz və partiyamız bacarıqlı, istedadlı gənclərin uğurla irəli getmələri üçün geniş meydan açıb, zəruri tədbirlər həyata keçirir.

Görüşdə çıxış edən YAP-ın Zərdab rayon təşkilatının təbliğat-təşviqat qrupunun üzvləri Rəmzi Şirinov, Gülnaz Məmmədova, Dərya Məmmədova, Həsən Abulov, Mübariz Umarov cəmiyyətdə bələdiyyələrin rolunun artmasının vacibliyindən, qarşıda duran vəzifələrdən danışıblar. Natiqlər bildiriblər ki, ölkə Prezidenti İlham Əliyevin daim diqqət və qayğısını öz üzərlərində hiss edən zərdablılar, əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də böyük fəallıq və coşqu nümayiş etdirəcək, bu siyasi kampaniyanın yüksək mütəşəkkilliklə keçirilməsinə nail olacaqlar.

Görüşdə çıxış edənlər YAP-ın qalib gələcəyinə inandıqlarını ifadə edərək, hər kəsi fəal olmağa, “Xalq üçün” səs verməyə çağırıblar.

## XAÇMAZ

23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Xaçmaz rayon təşkilatında rayonun Seyidlikəndyeri, Nabran və İstisu kəndlərinin seçi-





ciləri ilə görüş keçirilib.

Görüşdə YAP Xaçmaz rayon təşkilatının sədr müavini, qərargah üzvü Abasyar Heydərov çıxış edərək bələdiyyələr, bələdiyyə seçkiləri və ölkəmizdə həyata keçirilən uğurlu siyasətlə bağlı məlumat verərək, ölkəmizin bugünkü inkişafı və gələcək hədəfləri haqqında seçiciləri məlumatlandırıblar.

Tədbirdə qərargah üzvü Fazil Rəhmətov, seçicilərdən Aslan Məcidov, Qurban Əliyev, Səbinə Ağakişiyeva, Qüdrət Qədimov, Ələddin Qarabəyov, Aygün Məmmədova və başqaları çıxış edərək, bələdiyyə seçkilərində daha fəal iştirak edəcəklərini bildirməklə, partiyanın qələbəsini təmin etməyə çalışacaqlarını vurğulayıblar.

Tədbirdə, həmçinin, partiya fəalları çıxış edərək, rayonda bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat işlərinin uğurla yekunlaşacağını və bu seçkilərdə də Yeni Azərbaycan Partiyasının namizədlərinin qalib gələcəyinə əmin olduqlarını bildiriblər.

## İSMAYILLI

Dekabrın 23-də keçiriləcək Bələdiyyə seçkiləri ilə əlaqədar olaraq, Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının İsmayıllı rayon şöbəsi təbliğat - təşviqat kampaniyası çərçivəsində bələdiyyə üzvlüyünə YAP tərəfindən namizədliyi irəli sürülmüş təhsil işçiləri ilə növbəti görüşünü keçirib.

**Ardı Səh. 12**

# Yeni Azərbaycan Partiyasının “Xalq üçün” devizi ilə seçki təbliğatı uğurla keçirilir

Əvvəli Səh. 11

Tədbiri giriş sözü ilə açan YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova qeyd edib ki, ölkəmizin yüksək inkişafına hesablanmış uğurlu sosial-iqtisadi siyasət, bu gün məhz Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir: “Dövlət başçısının müəyyən etdiyi islahatlar kursunun həm miqyası, həm





də keyfiyyət baxımından, davamlı olması, iqtisadiyyatın hər bir strukturunda müşayiət edilməklə yanaşı, ən yeni idarəetmə texnologiyalarının tətbiqi ilə çox böyük nailiyyətlərin əldə olunmasını şərtləndirib. Daha sonra xalqın sosial-ictimai həyatında bələdiyyələrin rolundan danışıb”.

Tədbirdə çıxış edən əməkdar müəllim Şəfaqət Rəsulov, İsmayıllı şəhər 1 saylı tam orta məktəbin direktoru Gündüz Qədirov, 2 saylı tam orta məktəbin direktoru Ramil Dadaşov, 3 saylı tam orta məktəbin direktoru Əhmədağa Ələkbərov, 6 saylı tam orta məktəbin direktoru Qalib Beşirov və başqaları bələdiyyə üzvlüyünə namizədlikləri irəli sürülən partiya üzvlərinin hər birinin ən layiqli namizəd olduğunu qeyd ediblər və 23 dekabr tarixində keçiriləcək bələdiyyə seçkisində onları dəstəkləyəcəklərini bildiriblər.

Tədbirdə YAP İsmayıllı rayon təşkilatı təbliğat qrupunun üzvləri çıxış edərək, İsmayıllı bələdiyyəsi üzrə namizədlərə 23 dekabr bələdiyyə seçkilərində fəal iştirak etməyə, ölkəmizin hərtərəfli inkişafının davamlı olması naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

## BİNƏQƏDİ

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatında dekabrın 23-də keçiriləcək Bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP tərəfindən irəli sürülmüş Binəqədi rayonu Binəqədi Bələdiyyəsi üzvlüyünə namizədlərin seçicilərlə görüşü keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri, YAP Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov vətəndaşların seçib-seçilmək hüququ konstitusiya ilə müəyyən olunan ən müstəsna hüquqlardan biridir: “Artıq seçicilər öz gələcək taleyini özləri müəyyən edir, müxtəlif seçkili orqanlarda təmsil olunacaq nümayəndələrini seçməklə, həm də həmin qurumlarda öz maraqlarının müdafiəsini təmin etmiş olurlar. Onlar inandıqları, etimad göstərdikləri namizədləri seçərək, onlar qarşısında istənilən məsələ ilə bağlı təkliflər irəli sürür və bununla da, onların həllinə müvəffəq olmuş olurlar. Sonra rayon təşkilatının sədri namizədlərə tövsiyələrini verib.”

Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin üzvü, Binəqədi rayon icra hakimiyyəti yanında ictimai şuranın sədri Aslan Mehdiyev bildirib ki, Yeni Azərbaycan Partiyası bütün fəaliyyəti dövründə daim xalqla bir olub, onun inkişafı və tərəqqisi yolunda əzmlə çalışıb. Son illərdə ölkə Prezidenti, YAP-ın Sədri Cənab İlham Əliyevin həyata keçirdiyi və müxtəlif sahələrdə mühüm dəyişikliklərə səbəb olan bu islahatlar xalqımıza olan sevginin bariz nümunəsidir. O, seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıb.

Bələdiyyə üzvlüyünə namizədlər Mürsəl Eminov və Aysel Əlizadə çıxış edərək vurğulayıblar ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətlə cəmiyyətimizdə demokratik ənənələr daha da möhkəmləndirilib. Bildirilib ki, əvvəlki seçkilərdə olduğu kimi, bu seçkilərdə də YAP təmsilçiləri qələbə qazanacaqlar. Daha sonra namizədlər seçiciləri bələdiyyə seçkilərində YAP-ın namizədlərinə səs verməyə dəvət ediblər.





Görüşün sonunda seçicilərin çoxsaylı sualları cavablandırılıb.

***ZÜMRÜD BAYRAMOVA***
***RƏFİQƏ HÜSEYNOVA***
***Rövşən RƏSULOV***
***Nəzakət ƏLƏDDİNQIZI***

# 9 dekabr Beynəlxalq Soyqırımı Cinayəti Qurbanlarının Xatirəsini Anma Günüdür

***9 dekabr Beynəlxalq Soyqırımı Cinayəti Qurbanlarının Xatirəsini Anma Günüdür. Bu xatirə günü 1948-ci ildə “Soyqırımı cinayətinin xəbərdarlıq edilməsi və cəzalandırılması” haqqında Konvensiyanın qəbul edilməsi ilə bağlı seçilib. Onun keçirilməsindən məqsəd soyqırımı qurbanlarının xatirəsini anmaqla yanaşı, dünya ictimaiyyətinin diqqətini bu ağır cinayətin təqsirkarlarının cəzalandırılması və onların qarşısının alınması məsələlərinə cəlb etməkdir.***




BMT Baş Assambleyasında bu qətnaməni səsvermə keçirilmədən qəbul edən 193 üzv ölkə bəyan edib ki, hər bir ayrıca dövlət öz əhalisini soyqırımından qorumaqla mükəlləf olmalıdır. Eyni zamanda, bu cinayətin qarşısının alınması və ona təhrik edənlərin cəzalandırılması da hakimiyyətlərin vəzifəsidir.

AZƏRTAC xəbər verir ki, BMT-nin Baş katibi Antonio Quterreş soyqırımı cinayətləri ilə əlaqədar çıxışında deyib: “Antisemitizm, islamofobiya və nifrət zəminində irqçilik və ksenofobiya təzahürlərinin artması fonunda bütün insanların bərabərliyi və ləyaqətinin qorunmasının təmin edilməsi prinsiplərinə sədaqətimizi bir daha nümayiş eydirməliyik”.

Azərbaycan xalqı da son 200 ildə bir çox faciələr və soyqırımlarına məruz qalıb. Bu dəhşətli hadisələrdən biri 1918-ci ilin mart-aprel aylarında yaşanıb. Birinci Dünya müharibəsindən sonra Rusiyada yaranmış vəziyyətdən istifadə edən ermənilər öz istəklərinə bolşevizm bayrağı altında nail olmağa cəhd ediblər. Daşnak-bolşevik tandemi 1918-ci ilin əvvəllərindən başlayaraq bütün Bakı quberniyasında yaşayan azərbaycanlıların çıxarılması məqsədlərini güdən cinayətkar planın reallaşdırılmasına başlayıb. 1918-ci ilin mart-aprel aylarında ermənilər tərəfindən törədilən cinayətlər Azərbaycan xalqının yaddaşında silinməz iz qoyub. Təkcə milli mənsubiyyətinə görə minlərlə dinc azərbaycanlı məhv edilib. Ermənilər evləri yandırır, insanları diri-diri oda atırdılar. Onlar tərəfindən milli memarlıq abidələri məktəblər, xəstəxanalar, məscidlər və digər tikililər dağıdılıb. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və Azərbaycanın digər ərazilərində xüsusi qəddarlıqla həyata keçirilib. 1918-ci ilin mart-aprelində Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 30 mindən çox azərbaycanlını qətlə yetirib, 10 minlərlə insanı öz torpaqlarından qovublar. Təkcə Bakıda 10 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürülüb, Şamaxıda 58 kənd dağıdılıb, 7 min nəfər (1653 qadın, 965 uşaq) məhv edilib. Quba ərazisində 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qars əyalətində 92 kənd yerlə yeksan olunub; əhali üzərində yaş və cinsinə məhəl qoymadan qətliam həyata keçirilib.

Ulu öndər Heydər Əliyevin “Azərbaycanlıların soyqırımı haqqında” 1998-ci il 26 mart tarixli Fərmanı ilə soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi bu sahədə aparılan tədqiqatlara, həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verib. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Ermənilərin törətdikləri digər dəhşətli cinayət - Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olub. Xocalı faciəsi Xatın, Lidisa, Oradur soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı bir hadisədir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin Xankəndində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin və texnikasının bilavasitə iştirakı ilə Xankəndi ilə Əsgəran arasında yerləşən Xocalı şəhərini zəbt edərək, Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirib. Hücumdan əvvəl, fevralın 25-i axşamdan şəhər toplardan və ağır zirehli texnikadan şiddətli atəşə tutulmağa başlayıb. Xocalı soyqırımı zamanı şəhərin 5379 nəfər əhalisi deportasiya olunub, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalıb (onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil), 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb, 8 ailə tam məhv edilib, 130 uşaq valideynlərdən birini, 25 uşaq isə valideynlərdən hər ikisini itirib, 613 nəfər, o cümlədən 63 uşaq və 106 qadın işgəncə verilməklə vəhşicəsinə öldürülüb. Ermənistan silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar Azərbaycan dövlətinə və vətəndaşlarına 170 milyon ABŞ dollarından artıq ziyan vurulub.

Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapıb. Dünyanın 13 ölkəsi parlament səviyyəsində, ABŞ-ın 22 ştatı parlament səviyyəsində, İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını rəsmən tanıyıb. Avropa İnsan Haqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qırılmasını “müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər” kimi müəyyən edib.

TƏRS BAXIŞ

# Güktəkin Hacıbəyli "Azadlıq" qəzetinin hədəfində olarkən...

## "Milli Şura"nın koordinasiya mərkəzinin üzvü Gültəkin Hacıbəylinin vaxtilə müxalifət tərəfindən "atəşə" tutulması faktı...



İndi, bu "mübariz qadın" həmin qəzetin müdiri olan Əli Kərimlinin "gözünün işığı", "namusu", "qeyrəti", hətta arxalandığı filan yeri olub. "Azadlıq" qəzetinin 2-3 oktyabr 2005-ci il tarixli 208-ci (2871) sayında "Azadlıq" siyasi blokunun 96 saylı Goranboy-Naftalan seçki dairəsindən "vahid namizədi" Elçin Rzayevin müsahibəsində oxuyuruq: SİTAT: "...İndi dairənin seçicilərini ən çox bir məsələ maraqlandırır. Onlar Gültəkin Hacıyevanın hansı üzlə yenidən namizədliyini bu dairədən irəli sürməsini başa düşə bilmirlər. Özünü avropalı xanım sayan Gültəkin Hacıyeva, görəsən, Avropanın demokratik dəyərlərinə niyə saygı göstərmir? Onun hələ bu əraziyə gəlib əhalinin hansısa problemilə məşğul olduğunu, insanların gün-güzəranı ilə maraqlandığını görən olmayıb. Rayonda onun nüfuzu olduqca aşağıdır. Haqqında uzun-uzadı söz-söhbətlər dolaşır..."

### Gültəkin Hacıbəyliyə müxalifətə keçdikdən sonra "mələk" statusu verilib???

Təəssüf ki, həmin söhbətlərin nədən ibarət olduğu açıqlanmayıb, yoxsa əminik ki, məqalə daha da maraqlı alınardı. Amma bütün hallarda, bir daha xatırladaq ki, bunu yazan "Azadlıq" qəzetidir. İndi G.Hacıbəyliyə və onun yalanlarına, hap-goplarına, basıb-bağlamaqlarına və daha nələrinə-nələrinə ciddi-cəhdlə, özünü, sözün əsl mənasında, ülgücləməklə, dəstək verən qəzetin sosial şəbəkə variantı, görəsən, nə dəyişib??? Yoxsa G.Hacıbəyliyə "müxalifətə" keçdikdən sonra "mələk" statusu verilib???

*Rövşən NURƏDDİNOĞLU*

# İlqar Məmmədov-Əli Kərimli qarşıdurması yeni mərhələdə

## "REAL" AXCP-ni hədəfə alıb

***"REAL" partiyasının sədri İlqar Məmmədov, hələ həbsdə olarkən, daha doğrusu 2018-ci ilin prezident seçkisindən öncə, sosial şəbəkələrdə ona qarşı kampaniya düzənləyən AXCP sədri Əli Kərimli bu dəfə özü, qarşı tərəfin siyasi hücumlarına məruz qalıb. Məsələ ondadır ki, "əvəz-əvəz", prinsipi ilə qarşıdurmalara gedən tərəflər bir-birlərində səhv tutmağa və bu səhv üzərindən zərbələr endirməyə çalışırlar. Məsələn, belə olanda cəbhəçilər İ.Məmmədovun dəstəkləndiyini deyir və ona minnət qoyurlar. Bu baxımdan, indi də, görünür, növbə "REAL"ın olub.***

### Natiq Cəfərli: "Müxalifətdəki ab-hava kimlərəsə sərf etsə də, "REAL"a, əsla, sərf edə bilməz"

"REAL"çıların AXCP-yə ittihamlardan biri də budur ki, Ə.Kərimli məqsədli şəkildə şoular düzəldib və bununla, gündəmə gəlir. Məsələ ilə bağlı mətbuata açıqlama verən "REAL"ın icraçı katibi Natiq Cəfərli AXCP-nin minnət və ittihamlarına cavab olaraq, qeyd edib ki, İ.Məmmədovun həbsi zamanı Ə.Kərimli onun məhkəməsinə, məhz bir il sonra qatılıb. Məhz bu amili önə sürən "REAL" partiyasının funksioneri AXCP üzvləri tərəfindən səsləndirilən ittihamların heç bir əsasının olmadığını deyib və bəyanatın verilməməsində hər hansı bir qəbahətin olmadığını bildirib. "Burada heç bir problem görmürəm", Cəfərli deyib. Maraqlı məqamlardan biri də budur ki, "REAL" təmsilçisi müxalifətin radikalizmlə bağlı hər hansı bir uğur əldə edə bilməyəcəyini də deyib və qeyd edib ki, onlar bu kimi siyasi fəaliyyəti AXCP-dən fərqli olaraq, rədd edirlər. Əbəs deyil ki, N.Cəfərli Ə.Kərimlinin gündəmdə qalması üçün bu planı realizə etmək fikrinə düşdüyünü bildirib: "Siyasəti qorxulu bir sənət, iş, həbslər, təqiblər kimi təqdim etməyi, artıq 26 ildir görürük. Bu cür hallar, xalqın siyasətdən daha da kənarda qalmalarına səbəb olur... Hazırda müxalifətdəki ab-hava kimlərəsə sərf etsə də, "REAL"a, əsla sərf edə bilməz".

Göründüyü kimi, bu qarşıdurmanın davam edəcəyi, hələ bir neçə ay öncədən də proqnozlaşdırılırdı. Sadəcə, tərəflər bir müddət kənara çəkilərək, yeni ittihamlar üzərində "baş" sındırıblar. Ancaq bu kimi "başsındırmalar" düşərgənin özünün çanağında çatlayıb.

*RÖVŞƏN*

# Cəbhəçilər Əli Kərimlini boykot edəcəklər

***Növbədənkənar parlament seçkilərində əksər siyasi partiyaların iştirak edəcəkləri barədə bəyanatlar və partiyaların açıqlamaları eşidilir, amma yenə də "Milli Şura" - AXCP bu prosesdən kənarda qalmağa və "boykot"a çağıran fikirlər səsləndirməyə başlayıblar. Söhbət etdiyimiz müsahiblərimizin, birmənalı mövqeləri ondan ibarət oldu ki, Əli Kərimli, Cəmil Həsənli və bu kimi şəxslər yenə də xarici maraqlı dairələrin sifarişi və göstərişi ilə hərəkət edir, onların tapşırıqlarını yerinə yetirirlər.***

### "Yurddaş" partiyasının sədri Mais Səfərli: "Radikal müxalifət xalqdan ayrı düşüb"



- Fevralın 9-da keçirilməsi planlaşdırılan növbədənkənar parlament seçkiləri Azərbaycan Konstitusiyasına və qanunlarına tamamilə uyğundur. Bu gün ölkədə Cənab Prezident çox böyük islahatlara start verib. Bu islahatların artıq iqtisadi səmərəsini, faydasını cəmiyyətin hər bir üzvi görməkdə, hiss etməkdədir və bu islahatlar davam edir. Bu islahatlar hakimiyyətin bütün qanadlarını əhatə edir və o cümlədən də, qanunvericilik hakimiyyəti olan Milli Məclisin fəaliyyətini də özündə ehtiva edir. Ona görə də, burda qeyri-adi heç nə yoxdur. Lakin bunun müxalifət düşərgəsini təmsil edən şəxslərin narazılıqla qarşılamaları və etiraz bildirmələri onların xalqdan ayrı düşdüklərinin göstəricisidir. Yəni müxalifətin radikal hissəsi həmişə böhtanlarla məşğul olub və olur. Hər zaman olduğu kimi, indi də parlamentin fəaliyyətinə qarayaxma kampaniyası aparırlar. Ümumiyyətlə, növbədənkənar seçkilərin keçirilməsini tələb edən kimlər idi, elə radikal müxalifət düşərgəsini təmsil edən şəxslərin özləri idi, sözügedən qüvvələrə sual vermək lazımdır ki, bu da meydan, yeni parlament seçkiləri keçirilir və əgər gücünüz varsa seçkiyə qatılıb, gücünüzü göstərin. Əgər onlar bu seçkilərə qatılmırsa, deməli, onların məqsədi bu seçkilərə qatılmaq deyil, sadəcə olaraq, başqa fəaliyyətləri olmadığı üçün anormal mövqe nümayiş etdirilər. Əgər müxalifət güclü olsaydı və seçkilərə hazır olsaydı, onda bu məsələlərə narazılıq etməzdilər. Ümumiyyətlə, onların bu seçkilərə qatılmamasının səbəbi qabaqcadan öz məğlubiyyətlərini görmələri idi. Yəni radikal müxalifət düşərgəsini təmsil edən şəxslər çox gözəl bilirlər ki, onların xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur və bu seçkilərdə də uğur qazanmaq şansları da sıfıra bərabərdir.

### Müasir Müsavat partiyasının sədri Hafiz Hacıyev: "Vaşinqtonda özünə təzə bığ qoyan Həsənov Cəmil də, artıq bu seçkilərə bağlı anormal çıxışlar etməyə başlayıb"



- Müxalifət düşərgəsini təmsil edən şəxslərin məqsədi ölkədə keçiriləcək bu seçkilərə kölgə salmaqdır. Yəni bu seçkilərə qeyri-legitimlik statusu vermək istəkləridir. Hər dəfə ölkədə bir seçki keçirilən zaman müxalifət düşərgəsini təmsil edən şəxslər başlayırlar hay-küy salmağa. Bunun Əlisə də, gedib Vaşinqtonda özünə təzə bığ qoyan Həsənov Cəmil də, artıq bu seçkilərə bağlı anormal çıxışlar etməyə başlayıblar. Demək olar ki, ömür boyu onlar bu cür xəyanətlərlə məşğul olub və olmaqda da davam edirlər. Amma onların nə istəmələrindən və nə etmələrindən asılı olmayaraq, onların heç vaxt məkrli planları baş tutmayacaqdır. Demək olar ki, adları çəkilən şəxslərin bu seçkilərə getməmələri xaricdən idarə olunan bir prosesdir. Bunun da başında Azərbaycan dövlətinin inkişafını istəməyən və ölkəmizin uğurlarına kölgə salmaq istəyən qüvvələr dayanır. Amma parlament seçkiləri şəffaf, demokratik şəkildə keçiriləcək və radikal müxalifətin məkrli planları baş tutmayacaq.

*GÜLYANƏ*

# Sosial şəbəkə istifadəçiləri Əli Kərimlini ələ saldılar - Dubaya gedir?




AXCP sədri Əli Kərimlinin trolları "Facebook" sosial şəbəkəsində onun növbəti sifarişini reallaşdırmaqla, özlərini, sözün əsl mənasında, cəncələ salıblar. Kərimlinin trollarından biri olan Rasim Nəbiyev "Milli Şura"-AXCP cütlüyünün uğursuz aksiyalarından sonra uğradıqları rüsvayçılıqları ört-basdır etmək üçün status paylaşıb. Başıbəlalı statusunda "Əli Kərimli mitinq üçün Dubaya da çağırsa gedərik" kimi fikirlərini yazan AXCP trolunun bu ifadəsi digər istifadəçilər tərəfindən ələ salınıb.

Misal üçün, Yaz Çiçəyi adlı istifadəçi "Gopa basmaq adətidir", Vəfa Orxan "Özü də ailəlikcə gedərlər", Nicat Həsənov "Lap istəsələr, nəsillikcə gedərlər", Ləman Bayramova "Çinki hamısı Dubaya gedənlərin təfəkküründədirlər" kimi statusları ilə Əli Kərimlinin və ətrafının ucuz şoumen olduqları qənaətinə gəliblər.

Xatırladaq ki, bir müddət əvvəl, icazəsiz aksiyalar keçirməklə vətəndaşları itaətsizliyə çağıran, bu vasitə ilə sabitliyi pozmağa çalışan, siyasi gündəmi dəyişməyə cəhd edən "Milli Şura"-AXCP cütlüyü xalqın kəskin qınağına rast gəldi və heç bir dəstək ala bilmədi. Məhz bundan sonra dağıdıcılar öz ənənələrinə sadiq qalaraq, uğursuzluqlarının baiskarı kimi özlərini deyil, xalqı günahlandırmağa başladılar. Lakin göründüyü kimi, xalq onları rədd edir və ümumiyyətlə, Azərbaycanın siyasi səhnəsində görmək istəmir.

*Rövşən*



# Orenburqda dəhşətli qəza: Qırğızıstan vətəndaşları diri-diri yandı

Rusiyanın Orenburq vilayətində ağır yol-nəqliyyat hadisəsi qeydə alınıb. "RİA Novosti" xəbər verir ki, minivenlə "Qazel"in toqquşması nəticəsində yanğın baş verib. Yanğında 4 nəfər ölüb, 4 nəfər isə müxtəlif dərəcəli yanıq və xəsarətlərlə Sol-İletsk şəhərinin xəstəxanasına aparılıb.

# İsa Qəmbəri kim “baqaja” qoydu?

*Gültəkin Hacıbəyli: “Bir şəxs ki, siyasi tacir statusu ala, saxta sənəd alveri və sair edə, biz onun üzünə vurmadıqca, uşaq kimi sırtılır”*

***“Bir medalın iki üzü” buna deyirlər. Deyəndə ki, müxalifət düşərgəsi satqınlar yuvasıdır, sözü qəribliyə salırlar. Elə bu günlərdə sabiq Müsavat başqanı İsa Qəmbərlə AXC-nin və “Milli Şura”nın sədri, bəli, sədri Əli Kərimlinin “primadonnası” Gültəkin Hacıbəyli arasında qalmaqalı yenidən alovlanıb.***

G.Hacıbəyli özünün “Facebook” səhifəsində yazır ki, İ.Qəmbər mənə 2013-cü ilin payızında Müsavat partiyasının beynəlxalq məsələlər üzrə başqan müavini vəzifəsini təklif etməsindən gedir. İmtina etmişəm və hesab edirəm ki, düz etmişəm: “İsa bəyin bu gün bu fikirləri ictimailəşdirir. Bu ikilikdə olan söhbət idi. Heyif ki, çox şeyləri demək olmur... Düzdür, İsa bəyin təklifi şəxsi söhbət deyildi, ən böyük müxalifət partiyalarından birinin idarəetməsilə bağlı idi, amma mən yenə də bu söhbəti açmadım, ən doğma bildiyim insanlardan, məsələn, Cəmil müəllimdən başqa, illərlə heç kimlə bölüşmədim. Hörmətli İsa bəy, mən bunu istəmirdim və etməzdim də, məni bu söhbəti ictimailəşdirməyə müsavatçılar məcbur etdi. Hər addımda məni keçmişimlə vuran, mənə qarşı ardıcıl kampaniyalar aparan, on ildir etdiyim fədakarlıqları, verdiyim qurbanları görməzdən gələn və bütün həyatı boyu etdiyim imtinaların bir faizini etməyəcək bəzi partiyadaşlarınız”.

Ardınca G.Hacıbəyli daha da aqressiv şərh yazıb: “İsa Qəmbərə, görünür, bu statusun mahiyyəti hələ də çatmayıb. Yaxşı, mən pis idimsə, niyə məni partiyanızın rəhbərliyinə dəvət edirdiniz, MŞ-yə komitə sədri seçirdiniz?! Bunu düşünmək əvəzinə, zombi kimi bir ucdan yükləyirlər”.

### “Gültəkin Hacıbəylidir - haqsız, qərəzli şəxslərdəndir”

Sabiq başqan G.Hacıbəylinin qarşısına elə cavablar qoydu ki... Ancaq bunu da demək lazımdır ki, nə deyibsə, yerində deyib. Baxın, İ.Qəmbər elə bu statusun altından şərh yazaraq bildirib ki, Azərbaycan ictimai-siyasi arenasında ən çox tənqid olunan - haqlı ya haqsız, səmimi, ya qərəzli şəxslərdən biri Gültəkin Hacıbəylidir: “İradlar demokratik düşərgədən gələndə, Gültəkin xanımın cavab üçün istifadə etdiyi əsas arqumentlərdən biri də, təxminən, belə olur: “Müsavat başqanı İsa Qəmbər mənə təkidlə partiyanın beynəlxalq siyasət üzrə başqan müavini



postunu təklif edib, 2013-cü ilin payızında, mən imtina etmişəm.”Gültəkin xanım məram və niyyətlərin dəqiqləşdirilməsi üçün edilən söhbəti “təkidli təklif” kimi dəyərləndirirsə, mübahisə etməyəcəm. İki nəfər arasında söhbətin elə yalnız iki də şahidi var. Məncə, aydın məsələdir ki, kiməsə vəzifə təklif etmək onu toxunulmaz etmir, tənqiddən təminat vermir. Bu mövzuda diskussiyalıq bir şey yoxdur. Başqa bir məqamı vurğulamaq istəyirəm. Hörmətli Gültəkin xanım, mən sizə xarici siyasət üzrə müavin vəzifəsini təklif etmişəmsə də, hər halda, daxili siyasət üzrə müavin vəzifəsi təklif etməmişəm. İndi də düşünürəm ki, siz özünüzün, bilavasitə funksiyalarınızı həyata keçirməklə yanaşı, daha toparlayıcı mövqe tutsanız, təmsil etdiyiniz quruma və bütövlükdə, demokratik düşərgəyə daha çox fayda gətirmiş olarsınız”.

### Murad Əliyev: “Sosial şəbəkələrin troll “madonnası” Gültəkin Hacıbəyli yenə də yuyulmamış çömçə kimi ortaya düşüb”

G.Hacıbəylinin bu statusuna yazılan şərhlərdə isə müsavatçılarla “Milli Şura” təmsilçiləri bir-birini təhqir atəşinə tutub. Murad Əliyev adlı istifadəçi yazıb: “Gültəkin Hacıbəyli yenə də yuyulmamış çömçə kimi ortaya düşüb. Hər dəfə ölkəmizdə mühüm beynəlxalq yarış və ya tədbir keçiriləndə, sosial şəbəkələrin troll “madonnası” yenə də aktivləşir”.

Pərvin Hacıyev isə belə yazıb: “İsa Qəmbər özünü daim gündəmdə saxlamağa çalışan və siyasi cəhətdən tükənmiş bir insandır. Həqiqətən, onda çox neqativ aura var. Sifətini görəndə, adam depressiyaya düşür... Bir şəxs ki, siyasi tacir statusu ala. Saxta sənəd alveri və sair. Biz onun üzünə vurmadıqca, uşaq kimi sırtılır”.

### Gültəkin Hacbəyli - yalançı illüziyalarla haraya qədər

Bu, o G.Hacıbəylidir ki, hər sifətdə ola bilir. Və özünü “Milli Şura”nın əzəli və əbədi, “cəfakeş” üzvü adlandıran, müxalifətçi libası altında siyasi meydanda əsl çılpaqlıq nümayiş etdirən sosial şəbəkələrin troll “madonnası” G.Hacıbəyli 2010-cu ilə qədər deputat kürsüsündə oturan, daha sonra seçicilərinin “yox” dediyi bu qadın 2009-cu ildə Milli Məclisin plenar iclasındakı çıxışı zamanı dediyi sözləri necə “yeyə” bilir? “Azərbaycan demokratiya yolunda addımlarını atan bir ölkə kimi, sözsüz ki, insan haqları sahəsində də inkişaf edir. Azərbaycanda insan haqları sahəsində spekulyasiyalar da var. Məhz bu spekulyasiyalar nəticəsində, bəzən biz terrorçuların, casusların cəmiyyətə siyasi məhbus kimi təqdim edilməsi, sırınması niyyətlərini görürük” deyən satqın və mənəviyyatsız G.Hacıbəyli, indi nə deyişdi?

2009-cu ildə keçirilən referendum zamanı İTV-də keçirilən debatda Hüquq və Demokratiya Təşviqat Qrupunun vəkili kimi sən G.Hacıbəyli ilə İ.Qəmbər arasında baş verən insident də yaddaşlardan heç də silinməyib. Yuxarıda təqdim etdiyim çıxışı zamanı G.Hacıbəyli “terrorçuları və casusları cəmiyyətə siyasi məhbus kimi sırıyanlar” deyəndə, o, AXCP sədri Ə.Kərimlini və Müsavat başqanını nəzərdə tuturdu. Bu 6-7 ildə nə dəyişdi ki? Və necə “müxalifətçi” oldun?

Deputat olduğu müddətdə ölkə Prezidentimizin apardığı siyasəti təbliğ edərkən, çıxışına “Əziz yeni azərbaycanlılar” müraciəti ilə başlayarkən yəqin ki, dediklərini unuldub. SİTAT: “Əziz yeni azərbaycanlılar, əziz İlhamsevərlər! Xoş gördük sizləri...” deyən G.Hacıbəyli dünən iqtidarçı, bu gün müxalifətçi, sabah heç kim olmayan Gültəkindir.

Doğrudan da, adamın yazığı gəlir buna. İnsanın Ə.Kərimlinin, İ.Qəmbərin, A.Hacılının, F.Qəhrəmanlının, İ.Məmmədovun timsalında rəzil günə düşməsi, elə də təsirli deyil. Ancaq qadının bu kökə düşməsi dəhşətdir.

Son olaraq, demək istərdim ki, G.Hacıbəyli kimilərin tarix boyu cəmiyyətə qazandırdığı və qazandıracağı heç nə olmayıbdı. Uzun illər bu dövlətin çörəyini yemiş, sonradan əqidəni 180 dərəcə dəyişən, Vətənindən, dövlətindən üz çevirən şəxsin hərəkətlərinin adı - NANKORLUQ! SATQINÇILIQ! G.Hacıbəyli kimi əxlaqsızlar bir daha anlamalıdırlar ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin yalı ilə bəslənənlər xalqın qınağından qurtula bilməyəcəklər.

***Rəfiqə HÜSEYNOVA***



# Arif Hacılı indi də qadınları hədəfə alıb

**RƏFİQƏ**

***Müsavat başqanı Arif Hacılı haqqında növbəti şok fakt ortaya çıxıb. Demə, o, həm də tərbiyəsiz imiş. Bunu da ki, mən deyil, elə uzun illər onunla çiyin-çiyinə “siyasi mübarizə” aparmış Ellada Məmmədli deyir. A.Hacılının 2020-ci ilin fevral ayının 9-da növbədənkənar parlament seçkisində iştirak etmək üçün əl-ayağa düşməsini eşidəndə cin vurub E.Məmmədlinin başına. Demə, Arif Hacılının sədr kimi hansı müsavatçı qadından xoşu gəlmirsə, onu söyür və təhqir edir. Məsələn, partiyanın qadınlar birliyinin sabiq sədri E.Məmmədli hələ də indi görünməyən tərəfləri cəmiyyətə açıqlayıb. Məsələn, deyir ki, partiyanın qadınlar birliyindən istefa verməsinə səbəblərdən biri də, məhz Hacılının müəyyən qeyri-etik davranışları olub.***

Sitat: “...İstefa verən xanımlar Arif Hacılının qruplaşmasına daxil deyillər. Arif Hacılının cılız bir qrupu var. Bunu hamı bilir. A.Hacılının belə bir fikri var ki, onun xoşu gəlməyən onunla deyil. Bu qrupa aid olmayanları yanından qovmaq üçün bütün üsullara əl atır. Elə bilirsiz ki, onlar qadınlara hücum etməyiblər? Qapalı qrupda qadınlara qarşı elə biədəb sözlər deyirlər ki, dilə gətiriləsi deyil. Bunu edənlər isə A.Hacılı qrupunun nümayəndələridir. Qadın haqqında kişi pis rəy yazırsa, deməli, onu dünyaya qadın gətirməyib, ailəsində də ana-bacısı yoxdur. Bunlar qadınlarla ən iyrənc üsullarla mübarizə aparırlar. Hansı ki, bu ifadələr dilə gətiriləsi deyil”.

A.Hacılı kimi adlarını “kişi” qoyanlar çoxdur. Arif Hacılı və qrupundakılar azad fikirli qadınlardan qorxduğuna görə, onları iyrənc vasitələrlə partiyadan uzaqlaşdırırlar. Demək, belə anlaşılır ki, istər idarəçilikdə, istərsə də şəxsiyyətlərində kifayət qədər qüsurlar var və bir-bir üzlərinə saymaq olar. Əlbəttə, Hacılı və ətrafı onları tənqid edən qadınlardan qorxduqlarına görə, onları təhqir edirlər. Necə deyərlər, adlarını “kişi” qoyub, kişiliyə yaraşmayan hallara rəvac verirlər. Nədir ki, onu tənqid edən müsavatçı qadınlar partiya daxilindəki haqsızlığa qarşı mübarizə aparırlar.

Beləliklə, görünür, parlament seçkilərinə kimi, A.Hacılı kimi “kişilər” E.Məmmədli kimi qadın cildində olan kişilər qorxusundan geydikləri uzun tumanlar olacaq. Necə deyərlər, Müsavatda aləm qarışacaq, özü də necə. Bir sözlə, Müsavatda anormal vəziyyətin yaşanması başqa məcraya yönələcək. Belə bir vəziyyətdə maraqlıdır, görəsən, A.Hacılı parlament seçkilərinə hansı üzlə gedəcək? Bir də A.Hacılı həya-abır nə olduğunu anlayır ki? E.Məmmədli onu da deyib ki, A.Hacılı kimi abırsızların yeri parlament kreslosu deyil, pozğun və tərbiyəsizlər toplumunun taxta oturacaqlarıdır ki, elə bil həmin oturacaqlar əxlaqsız Müsavat başqanının və ətrafının sanki boyuna biçilib...

# Cəmil Həsənli imicini dəyişib?

*Sənan Nəcəfov: “Şükür, yaxşı qurtardıq!..”*

***Mediada “Milli Şura”nın sədri Cəmil Həsənlinin imicini (xarici görünüşünü) dəyişməsi barədə məlumatlar yayılıb. Bununa bağlı “qhtxeber.az” saytının baş redaktoru Sənan Nəcəfov “Facebook” sosial şəbəkəsində maraqlı status paylaşıb.***

“Saytlarda oxudum ki, “Milli Şura”nın sədri Cəmil Həsənli imicini dəyişib” deyə qeyd edən baş redaktor, bununla bağlı yazıb ki,



həmin xəbəri birbaşa tıklamağa risk eləməyib: “Birbaşa tıklamağa risk eləmədim, düşündüm, qoca kişidir də, hər cür hoqqabazlıq edər”.

### “Səfeh açıqlamalar verən, cümləsinin əvvəlini səhifə admini, ortasını Əli Kərimli, sonunu özü yazan adamdır da”

C.Həsənlinin daim əsassız və yersiz açıqlamalar verməsini də xatırladan S.Nəcəfov “Milli Şura”nın sədrinin imicini dəyişmək məqsədi ilə bığ buraxmasına çəkinə-çəkinə baxdığını və ictimai rəyin bu məsələdən yaxşı qurtarmasına eyham vurub: “Səfeh açıqlamalar verən, cümləsinin əvvəlini səhifə admini, ortasını Ə.Kərimli, sonunu özü yazan adamdır da. Odur ki, ehtiyatla, çəkinə-çəkinə baxdım. Şükür, yaxşı qurtardıq”.

Görünür, C.Həsənli, həqiqətən də, ictimai rəydə rədd edilməsini, siyasi müxalifətdə, sadəcə, müqəvva olduğunu anladıqdan sonra, imic dəyişmək adı altında bığ buraxıb ki, heç olmasa, bu vasitə ilə “təsir gücünü” saxlasın...

***Rövşən NURƏDDİNOĞLU***

# Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğuna təkan verən ictimai birliklər

***"Azərbaycan Könüllülər" İctimai Birliyi (bundan sonra AKİB) 2000-ci il noyabr ayında Bakı şəhərində yaradılan qeyri-hökümət təşkilatıdır. Yarandığı gündən Azərbaycan Könüllər İctimai Birliyi qarşısına aşağıdakı vəzifələrin yerinə yetirilməsini qoymuşdur:***

1. Azərbaycanda könüllülük işinin inkişafı və əsasən, gənclərdən ibarət könüllülər hərəkatının yaradılması;
2. Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğuna təkan vermək;
3. Sosial, iqtisadi və ekoloji problemlərin aradan qaldırılmasına töhfə vermək;
4. Azərbaycan könüllülərinin beynəlxalq inteqrasiyasının təmin edilməsi məqsədi ilə beynəlxalq əməkdaşlığın qurulması;
5. Təşkilatın məqsədindən irəli gələn vəzifələrin həyata keçirilməsi üçün müxtəlif seminar, konfrans, debat, təlim kursu, sosioloji sorğu, dəyirmi masa, forum, yerli və beynəlxalq könüllü düşərgələri və tanışlıq səfərlərinin təşkil olunması;
6. İnsan hüquqları sahəsində fəaliyyətin gücləndirilməsi;
7. Səhiyyə və sağlamlıq sahəsində düzgün işin qurulması, xüsusən də, gənclərin QİÇS, narkomaniya, spirtli içkilərdən istifadə, tütün məmulatlarına aludəçilik kimi ziyanlı vərdişlərdən çəkindirilməsi;
8. Mədəni, dünyəvi və milli dəyərlərin qorunması.

Gənclər təşkilatları dövlət-gənclər siyasətinin əsas istiqamətlərindən biri olmaqla yanaşı, vətəndaş cəmiyyətinin qurulmasında gənclərin iştirakını şərtləndirən əsas amillərdən biridir. Gənclər təşkilatlarda birləşərək öz imkan və bacarıqlarını konkret istiqamətlər üzrə səfərbər etməklə həm öz mənini axtarıb tapır, həm bir fərd kimi inkişaf edir, həm də vətəndaş cəmiyyətinin fəal iştirakçısı olurlar. Məhz bu səbəbdən, gənclər təşkilatları ilə işin təşkili və bu istiqamətə dövlətin diqqət göstərməsi gələcək nəslin hərtərəfli inkişafını köklü şəkildə təmin etmiş olur.

Hazırda 300-dən artıq gənclər təşkilatı Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır.

Gənclər təşkilatlarını nizamnamə məqsədlərinə görə aşağıdakı fəaliyyət istiqamələri üzrə ümumiləşdirmək olar:

X Avropaya inteqrasiya və beynəlxalq mübadilə proqramlarında iştirak;
X regionlarda yaşayan gənclərin problemlərinin həllində iştirak;
X beynəlxalq tələbə və gənclər təşkilatları ilə əməkdaşlıq;
X diaspora və lobbiçilik işində iştirak;
X vətənpərvərlik və vətəndaşlığın təşviq olunmasında iştirak;
X insan hüquqları, azadlıqları, hüquq problemlərinin, mənəvi dəyərlərin öyrənilməsi və gənclər arasında təbliği edilməsi;
X elm, təhsil, mədəniyyət və ekoloji maarifləndirmə;
X gənclərin informasiya texnologiyaları sahəsində maarifləndirilməsi və kompüter oyunlarının inkişafına kömək;
X gənclər arasında intellektual oyunların inkişafına kömək;
X sahibkarlıq fəaliyyətinin gənclər arasında təşviq edilməsi;
X tələbələrin vətəndaş cəmiyyətində rolunun artırılmasında iştirak;
X gənclərin sosial problemlərinin həllində iştirak;
X ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə gənclər arasında dostluq münasibətlərinin gücləndirilməsində iştirak.

Dövlət-gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı qərarların qəbulu prosesində gənclərin qeyri-hökumət təşkilatlarının (ictimai birliklər və fondlar) iştirakını təmin etmək məqsədilə, 1994-cü ildən Gənclər və İdman Nazirliyinin yanında məşvərətçi statusla Gənclərlə İş üzrə İctimai Şura fəaliyyət göstərir.

Son dövrlərdə gənclər təşkilatları artıq mərkəzdən çıxaraq, daha çox regionlarda fəaliyyət göstərməyə üstünlük verirlər. Respublika səviyyəli təşkilatların regionlarda fəaliyyət göstərmələri ilə yanaşı, yerli təşkilatların yaranmasında da artım olmuşdur. Belə ki, Gəncə, Mingəçevir, Sumqayıt, Şəki, Biləsuvar, Samux, İsmayıllı, Şirvan, Hacıqabul, Lənkəran, Bərdə, Abşeron, Qazax, Zaqatala, Qobustan, Göyçay, Quba, Saatlı, Qusar, Masallı, Astara, Zərdab, Göy-Göl, Ucar, Beyləqan və Laçında yeni təşkilatlar yaranmış və əksəriyyəti dövlət qeydiyyatına alınmışdır.

Gənclər təşkilatlarının yerli və regional səviyyədə fəal iştirakının və həyata keçirdikləri uğurlu layihələrin nəticəsi olaraq, indiyədək Azərbaycan Demokratik Tələbə-Gənclər Təşkilatı (Bakı), "Sərhədsiz Gənclər" İctimai Birliyi (Bakı), Azərbaycan Könüllülər Birliyi (Bakı) və "Gələcəyə Körpü" Gənclər İctimai Birliyi (Gəncə) Avropa Şurasının təsis etdiyi "Gənc Aktiv Vətəndaş" mükafatına layiq görülmüşlər. Bu mükafat hər il Avropa məkanında fəaliyyət göstərən, yalnız 5 təşkilata Avropa Şurasının baş katibi tərəfindən təqdim edilir. Bundan başqa, fəallığı ilə seçilən "Ümidli Gələcək" Gənclər Təşkilatı (Bakı) isə, Avropa Şurasının diplomuna laqyiq görülmüşdür.

Gənclər təşkilatları, əsasən, Gənclər və İdman Nazirliyinin, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi hesabına müxtəlif layihələr həyata keçirirlər.

Maliyyələşmiş layihələr isə, əsasən, aşağıdakı istiqamətləri əhatə edir:

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması;
- gənclərin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi;
- gənclərin sahibkarlıq fəaliyyətinin inkişafı və məşğulluğunun təmin edilməsi;
- gənclərin asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi;
- gənclərin beynəlxalq əməkdaşlığının və mübadiləsinin genişləndirilməsi;
- gənclər sahəsi üzrə qeyri-formal təhsil metodlarının tətbiq edilməsi;
- gənclərin intellektual inkişafının təmin edilməsi;
- gənclər arasında ekoloji maarifləndirmənin aparılması;
- gənclər arasında informasiya texnologiyalarından düzgün faydalanmanın təbliği;
- gənclər üçün sosial xidmətlərin göstərilməsi və sağlam həyat tərzinin təbliği;
- insan hüquq və azadlıqlarının müdafiəsi, demokratik proseslərin inkişafı və gənclərin seçki fəallığının artırılması, söz, fikir və ifadə azadlığının genişlənməsi;
- gənclərin peşə hazırlığı və fərdi inkişafı;
- mədəniyyətlərarası və dinlərarası dialoq;
- insan alveri, xüsusilə, qadın və gənc qızların alveri əleyhinə gənclərin fəaliyyəti;
- gender bərabərliyi;
- liderlik və s.

Gənclər təşkilatları fəaliyyətinə görə qeyri-hökmət təşkilatları sektorunun ən dinamik qrupu hesab olunur. Gənclər təşkilatların fəaliyyətlərinin canlandırılması və stimullaşdırılması məqsədilə indiyədək 4 sərgi keçirilmişdir. Bundan başqa, təşkilatların layihələrinin maliyyələşdirilməsi istiqamətində, ardıcılı olaraq, dövlət dəstəyi göstərilir. Bu təşkilatların bəziləri artıq sahələr üzrə peşəkarlaşır, yeni təşkilatların yaranması prosesi davam edir və dövlət sifarişlərini yüksək səviyyədə yerinə yetirə biləcək təşkilatlar formalaşır.

Gənclər təşkilatlarının uğurlu fəaliyyət istiqamətlərindən biri də beynəlxalq təşkilatlarla əməkdaşlıq və onların həmin təşkilatlarda təmsil olunmasıdır. Hazırda 35-dən artıq beynəlxalq platformada gənclər təşkilatları Azərbaycanı təmsil edir. Müqayisə üçün qeyd edək ki, beynəlxalq platformlarda təmsil olunma son 10 ildə 2 dəfə artıb.

Azərbaycanın gənclər təşkilatlarının fəal iştirakı və təşəbbüsü ilə gənclərin aşağıdakı yeni regional platformaları yaradılmışdır:

1. "Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumu"
2. GUAM ölkələrinin Gənclər Forumu
3. Dünya Türk Gəncləri Birliyi
4. Dünya Gənc Türk Yazarlar Birliyi
5. "Böyük İpək Yolu" Beynəlxalq Gənclər İttifaqı

Gənclərin beynəlxalq əməkdaşlıq əlaqələrinin əsas istiqamətləri aşağıdakılardır:

X Avropa Şurasının Gənclər və İdman Direktorluğu;
X Avropa İttfaqının "ERASMUS+" proqramı;
X Avropa İttfaqının Şərq Tərəfdaşlığı Təşəbbüsü;
X Afrika İttiafqının gənclər platformasi;
X türkdilli ölkələr və xalqlarla əməkdaşlıq;
X Şərq və müsəlman ölkələri ilə əməkdaşlıq;
X beynəlxalq tədbirlərdə iştirak və tədbirlərin Azərbaycanda təşkili;
X beynəlxalq mübadilə və könüllülük proqramlarında iştirak;
X mədəniyyətlərarası və dinlərarası dialoqun qurulmasında gənclərin iştirakının təşviq edilməsi;
X beynəlxalq təşkilatların rəhbər və seçkili orqanlarında təmsil olunma və s.

Niderland Xarici İşlər Nazirliyinin maliyyə dəstəyi ilə Avrasiya Əməkdaşlıq Fondunun həyata keçirdiyi "Azərbaycanda İnsan Haqları, Demokratikləşmə və Yaxşı İdarəetmənin Təşviqi" Proqramı çərçivəsində dəstəklənir. Bu layihənin icrası Azərbaycan "Free Person" İnsan Hüquqlarını Müdafiə İctimai Birliyinin eksperti Qadir Ibrahimli ilə Avrasiya Əməkdaşlıq Fondu arasında bağlanmış "Demokratiya və insan hüquqlarının onlayn təşviqi" adlı xidmət çərçivəsində həyata keçirilir.

Layihənin məqsədi gənclərin demokratiya, insan hüquqları ilə bağlı biliklərinin artırılmasıdır. Eyni zamanda, insan hüquq və azadlıqlarının qorunması sahəsində mövcud hüquqi müdafiə mexanizmlərinin təşviqi də layihənin məqsədləri sırasına daxildir.

"Strateq.az" xəbər verir ki, layihə fəaliyyətlərindən biri kimi "Demokratiya koofisenti" adlı mobil əlavə yaradılması nəzərdə tutulub. Mobil əlavə məhşur "Kim milyoncu olmaq istəyir?" formatında hazırlanacaq. Bu mobil əlavə istifadəçilərə demokratiya və insan hüquqları ilə bağlı sualları cavablandırmağa və sonda bu sahədəki bilikləri barədə dəyərləndirmə aparmağa imkan verəcək. Mobil əlavə android platformasında işləyən mobil telefonlar üçün yaradılacaq.

Mobil əlavə ilə bağlı geniş məlumatlandırma tədbirləri keçiriləcək.

Eyni zamanda, layihə fəaliyyətlərindən biri kimi http://bizimmekteb.org/- Virtual İnsan Hüquqları Məktəbi-resursunun təkmilləşdirilməsi planlaşdırılır. Hazırda bu istiqamətdə işlər həyata keçirilir.

Layihə çərçivəsində 10 tanınmış ictimai xadim, vətəndaş cəmiyyəti fəalının demokratiya, insan haqları və informasiya azadlığı ilə bağlı mümkün islahatlar, qanunvericiliyin təkmilləşdirilməsi və s. mövzularda yazdığı məqalələr KİV vasitəsilə tirajlanacaq. Sonda bu məqalələrdəki təkliflər sistemləşidirləcək və ümumiləşdiriləərək hökumətə təqdim olunacaq.

**_Vahid Ömərov,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 10 dekabr

# Yevlaxda Ulu Öndər Heydər Əliyevin anım mərasimi keçirilib

***Yevlax rayonu Heydər Əliyev Mərkəzində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.***



Tədbirdə Şuşa Dövlət Teatrının aktyoru, əməkdar artist Nazir Rüstəmov çıxış edərək, 16 il əvvəl dekabr ayında müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim və xalqımızın Ümummilli Lideri Heydər Əliyev əbədiyyətə qovuşduğunu bildirib: "Çox illər keçəcək, lakin çiçəklənən Azərbaycanın vətəndaşları dövlət müdrikliyi və sarsılmaz mətinliyi sayəsində Azərbaycanın gələcəyini təmin etmiş bu dahi insanı unutmayacaqlar. Əsası Ulu Öndər Heydər Əliyevin yorulmaz əməyi ilə qoyulmuş bugünkü dayanıqlı inkişaf ölkə rəhbəri İlham Əliyevin dövlət xadimi istedadı sayəsində davam edir. XX əsrin 90-cı illərində Azərbaycanın dəf etdiyi çətin, lakin şərəfli yol yalnız Dahi Öndər Heydər Əliyevin fəaliyyəti sayəsində, tarixi həqiqətə çevrildiyi kimi, XXI əsrin əvvəllərinin möhtəşəm uğurları da Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin yeritdiyi siyasətin parlaq təzahürüdür".

Sonra Dahi Şəxsiyyətin həyatını və siyasi fəaliyyətini əks etdirən video nümayiş olundu.

Tədbir Müslüm Maqomayevin "Azərbaycan" mahnısı ilə sona çatdı.

***R.HÜSEYNOVA***






# Ağdaşlı gənclərlə görüş keçirilib

***Dekabrın 23-də keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatında təbliğat-təşviqat kampaniyası çərçivəsində gənclərlə görüş keçirib.***



Görüşü YAP Ağdaş rayon təşkiltının sədri Cavid Osmanov açaraq, 23 dekabr tarixində baş tutacaq Bələdiyyə seçkiləri haqqında məlumat verib. Son illər ərzində ölkədə, eləcə də, Ağdaş rayonunda görülən işlərə diqqət çəkən C.Osmanov Azərbaycanın davamlı inkişaf mərhələsi yaşadığını, insanların sosial rifah halının gündən-günə yaxşılaşdığını və bütün bunların Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş siyasətin nəticəsi olduğunu qeyd edib. Əsasını Ümummilli Lider Heydər Əliyevin qoymuş olduğu gənclər siyasətinin ölkə başçısı İlham Əliyev tərəfindən müasir dövrün tələbləri çərçivəsində davam etdirildiyini vurğulayan C.Osmanov dövlətin bu gün gənclərə göstərdiyi diqqət və qayğıdan söz açıb.

Tədbirdə millət vəkili Elman Nəsirov çıxış edərək, Yeni Azərbaycan Partiyasının həyata keçirdiyi layihələrə, eləcə də, dövlətimizin beynəlxalq münasibətlərinə diqqət çəkib və ölkənin inkişafında gənclərin də üzərinə böyük vəzifələrin düşdüyünü bildirib.

Görüşdə YAP Ağdaş rayon təşkilatı gənclər birliyinin sədri Teymur Əmirli, fəal gənclər İsa Seyidov, Pərvin Əhmədov, ilk dəfə səs verəcək gənclər Ülkər Əzizova və Şəhla Mürsəlova çıxış edərək, 23 dekabrda keçiriləcək Bələdiyyə seçkilərində fəallıq nümayiş etdirərək, Yeni Azərbaycan Partiyasının namizədlərinə yekdilliklə səs verəcəklərini qeyd ediblər.

***ZÜMRÜD BAYRAMOVA***

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Məmmədova Aysu Samir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.



# Finlandiya üçün 34 yaşlı yeni Baş Nazir

Finlandiyanın yeni Baş Naziri 34 yaşlı Sanna Marin olacaq. Belə ki, sosial Demokratlar Partiyasının Partiya Komissarları Şurası təcili iclasda ölkənin yeni Baş Naziri vəzifəsinə Sanna Marini 32-29 səs çoxluğu ilə seçib. Hökumətin yeni başçısı bundan əvvəl nəqliyyat və rabitə naziri vəzifəsində çalışıb. Seçkilərdə Sanna Marinin əsas rəqibi parlament fraksiyasının sədri Antti Lindtman olub.

Qeyd etmək lazımdır ki, 34 yaşlı Sanna Marin dünyanın ən gənc Baş Naziri olacaq və tarixində ilk dəfə Finlandiya "Qadınlar beşliyi" tərəfindən idarə ediləcək çünki bütün digər hakim partiyaların liderləri də qadınlardan ibarətdir.

# Binəqədidə həyat yoldaşını və qaynını bıçaqlayan şəxs tutulub



Bakı şəhər sakini E.Qırxlarovun M.Ə.Rəsulzadə qəsəbəsi ərazisində yaşayan keçmiş həyat yoldaşı A.Qırxlarovanın evinə gələrək ona və qardaşına bıçaqla xəsarət yetirməsi barədə Binəqədi Rayon Polis İdarəsinin 7-ci polis bölməsinə məlumat daxil olub.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, polis əməkdaşları tərəfindən dərhal müvafiq tədbirlər həyata keçirilib. Faktla əlaqədar Cinayət Məcəlləsinin 126-cı (Qəsdən sağlamlığa ağır zərər vurma) maddəsi ilə cinayət işi başlanıb. Bakı Şəhər Baş Polis İdarəsi və 7-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində E.Qırxlarov saxlanılıb. Binəqədi Rayon Polis İdarəsində araşdırma aparılır.



# Sumqayıtda yol qəzasında 9 yaşlı uşaq ölüb

Sumqayıtda piyadanın ölümü ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. AZƏRTAC xəbər verir ki, şəhər ərazisində yolu keçmək istəyən piyada, 2010-cu il təvəllüdlü Musayev Elmir Emil oğlunu minik avtomobili vurub. Həkimlərin səyinə baxmayaraq, Sumqayıt Şəhər Təcili Tibbi Yardım Xəstəxanasında 9 yaşlı uşağı xilas etmək mümkün olmayıb. Faktla bağlı araşdırma aparılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**